# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 091 (7259)

27 may 2025-ci il.
Qiymәti 60 qəpik

## Şərq aləmində ilk demokratik və hüquqi dövlət!




8

## Uğurlu model: İsmayıllı inkişafın yeni mərhələsində



2

# Müstəqillik Günü ərəfəsində növbəti humanist addım



28 May Müstəqillik Günü ərəfəsində Prezident İlham Əliyev növbəti dəfə humanizm dəyərlərini rəhbər tutaraq "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb. Sərəncam çoxsaylı ailələrə sevinc bəxş etdi.

6

### Bakıda "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfrans işə başlayıb



5

### "Yaş senzi"nə qarşı mitinq iştirakçıları olan 8-12 yaşlı uşaqlar kim idi?



10

### Ölmüş KİNOMUZ...



6

## Gənclər üçün sosial media: Faydalı, yoxsa zərərli?



9

## 17 yaşı var, La Liqada tarix yazır...




16

# Uğurlu model: İsmayıllı inkişafın yeni mərhələsində










*Müstəqil və suveren Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Öz tarixi ərazi bütövlüyünü təmin edən ölkəmiz yeni qlobal reallıqlar fonunda özünün inkişaf mərhələsindədir. Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini təmin etməkdədir.*

Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın hər bölgəsinə səfəri ölkəmizin sosial-iqtisadi inkişafına böyük təkandır. Yeni müəsissələrin açılışı, təməlqoyma mərasimləri, yol infrastrukturunun müasirləşməsi və s. ölkəmizin uğurlu inkişafına söykənən amillərdir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır.

Ölkəmizin turizm mərkəzlərindən biri olan İsmayıllı rayonu son illərdə sürətlə inkişaf edib. İndiyədək dövlətimizin başçısı bu rayonda 10 dəfə olub. Azərbaycan Prezidentinin İsmayıllıya hər səfəri rayonun ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilməklə, yeni sosial-iqtisadi inkişaf mərhələsinin təməlini qoyub. Bütün bunlar rayonda aparılan tikinti-quruculuq işlərinin, məhsul buraxılışının, sənaye və kənd təsərrüfatı məhsulunun həcmində, yeni iş yerlərinin açılmasında özünü aydın göstərir.

## YOLBOYU TUNEL VƏ BİRİ ASMA OLMAQLA 17 KÖRPÜ LAYİHƏLƏNDİRİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 26-da İsmayıllıya səfəri rayonun sosial-iqtisadi inkişafında əlamətdar hadisələrlə yadda qalıb. Təbii ki, Azərbaycan Prezidentinin bölgələrə hər bir səfəri regionların inkişafına, vətəndaşların rifahına, firavan həyatın təminatına yönəlib. Dövlət başçısının İsmayıllıya səfəri regionların inkişafına növbəti töhfədir. Bu gün ölkəmizin regionlarda böyük infrastruktur layihələri həyata keçirilir, müasir yollar çəkilir, sosial obyektlər inşa edilir. Bu, onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin siyasətinin mərkəzində vətəndaşların rahat həyat şəraiti və məmnunluğu dayanır.

Belə ki, Azərbaycan Prezidenti Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış olub. Layihə üzrə ümumilikdə işlərin 70 faizi icra edilib. İkinci texniki dərəcəyə uyğun qurulan yolun ümumi uzunluğu 85,6 kilometrdir. Yenidənqurma nəticəsində yol 8,8 kilometr qısalacaq. Yolboyu Ağsuçay çayı üzərində asma körpü inşa olunur. Körpüdə işlərin 40 faizi yerinə yetirilib. Körpüdən sonra yolun davamı olaraq uzunluğu 885 metr olan tunelin tikintisi aparılır. Ümumilikdə yeni layihə üzrə yolboyu tunel və biri asma olmaqla 17 körpü layihələndirilib.

Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolu əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik olmaqla paytaxt Bakını İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa magistral hesab edilir. Respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin tapşırığına əsasən layihələndirilib.

Zəngin potensiala malik olan Azərbaycanda yol infrastrukturunun inkişafı ölkənin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu daxili siyasəti sayəsində qazanılan müvəffəqiyyətlərin sırasında bu sahənin inkişafı önəmli yer tutur. "Azərbaycanda ən müasir yol infrastrukturu yaradılacaq", - deyən dövlət başçısı tərəfindən bu sahəyə ayrılan diqqət nəticəsində respublikamızda ən müasir standartlara cavab verən nəqliyyat obyektləri və geniş şəbəkəli nəqliyyat sistemi yaradılıb. Hazırda isə dinamik templə həyata keçirilən qlobal layihələr və Azərbaycan Respublikasının sürətli iqtisadi inkişafı ölkədə etibarlı və dünya standartlarına cavab verən nəqliyyat sistemini təmin edib. Bu gün respublikada nəqliyyat-yol kompleksinin inkişafı istiqamətində görülən işlər, o cümlədən, magistral avtomobil yollarının bərpası, ən ucqar kəndlərə yolların çəkilməsi və s. istiqamətində reallaşan layihələr dövlətin bu sahəyə olan diqqətinin bariz nümunəsidir. Bu sahəyə ayrılan diqqətin nəticəsidir ki, müasir yol infrastrukturu ölkə iqtisadiyyatının şaxələndirilməsinə, regionlarımızın sürətli inkişafına, eləcə də xalqın sosial rifahının yüksəldilməsinə öz töhfəsini verir.

Ardı Səh. 3

# Uğurlu model: İsmayıllı inkişafın yeni mərhələsində

Əvvəli-Səh-2

### "YENİLƏŞƏN AZƏRBAYCANA YENİ MƏKTƏB"

Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkəmizin bir çox regionlarında beynəlxalq tələblərə cavab verən yeni məktəb binalarının inşası-na, onların müasir avadanlıqla təchiz olunmasına xüsusi diqqət yetirilir, bir sıra köhnə məktəb binalarının əsaslı təmiri istiqamətində mühüm işlər görülür. İsmayıllı şəhərində inşa olunan internat tipli "Talıstan" liseyi də Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunub. Azərbaycan Prezidenti İlham Əliyev "Talıstan" internat tipli liseyin binasının açılışında iştirak edib. 1296 şagird yerlik lisey dörd mərtəbədən və 5 korpusdan ibarətdir. Binada 56 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, informatika, texnologiya, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, kitabxana, 300 yerlik akt zalı, idman zalı və yeməkxana yaradılıb.

Bu layihənin icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində təhsil sahəsinə ayrılan diqqətin göstəricisidir. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə bir neçə vacib layihə həyata keçirib. Müasir məktəblərin qurulması həm də Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsində olduqca mühüm rol oynayır.











### BEYNƏLXALQ KEYFİYYƏT VƏ TƏHLÜKƏSİZLİK STANDARTLARINA CAVAB VERƏN MÜƏSSİSƏ

"Talıstan" liseyində yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısına son illərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, o cümlədən 2020-2025-ci illərdə istifadəyə verilən istehsal müəssisələri və istirahət mərkəzləri barədə məlumat verildi. Həmin dövrdə rayonda fəaliyyətə başlamış bu obyektlərdə 400-ə yaxın iş yeri açılıb.

Prezident İlham Əliyevə rayonun Tircan kəndində su istehsalı müəssisəsinin inşası ilə bağlı məlumat verilib. İllik istehsal gücü 25 milyon litr olan müəssisədə 80 nəfər işlə təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllıya səfəri çərçivəsində "Azerbaijan Coca-Cola Bottlers" MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsinin açılışında iştirak edib. İsmayıllı rayonunun Topçu kəndində yerləşən bu müəssisə 15 hektar ərazidə inşa edilib və illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən müəssisədə 100-dən çox yerli sakin daimi işlə təmin olunub. Bu, "Coca-Cola Bottlers" MMC-nin ölkəmizdə ikinci istehsal müəssisədir. Yeni müəssisə tərəfindən istehsal olunacaq məhsulların əsasən daxili bazarda satışı nəzərdə tutulub. Müəssisə İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilən investisiya təşviqi sənədi çərçivəsində 7 il müddətində mənfəət və gəlir vergisindən 50 faiz güzəşt əldə edib. Bundan əlavə, əmlak və torpaq vergisindən, texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-dən və gömrük rüsumlarından azad olunub. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən layihənin maliyyələşdirilməsinə 10 milyon manat güzəştli kredit ayrılıb. "Azerbaijan Coca-Cola Bottlers" MMC ətraf mühitin mühafizəsi üzrə öhdəliklərə sadiq qalaraq istehsal zamanı sərf olunan enerjinin bir qismini günəş panelləri vasitəsilə əldə olunan yaşıl enerji ilə təmin etməyi nəzərdə tutur.

İsmayıllı rayonunda belə bir istehsal müəssisəsinin açılması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Yeni müəssisənin açılması istehsalın lokallaşdırılmasını, texnologiya transferini və idxalın əvəz edilməsini stimullaşdırır.

Qeyd edək ki, regionların davamlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi dövlətimizin başçısı tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar şərait, güzəşt və imtiyazlar onları ölkəmizə daha çox sərmayə yatırmağa sövq edir. "Coca-Cola"nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir. "Azerbaijan Coca-Cola Bottlers" MMC ölkəmizdə istehsala 1996-cı ildə başlayıb. Şirkət indiyədək Azərbaycan iqtisadiyyatına 200 milyon dollar sərmayə yatırıb.

Əlbəttə ki, Azərbaycanın iqtisadi-siyasi uğurlarını əsaslandıran amillər möhkəm siyasi sabitliyin olması, iqtisadiyyatın şaxələndirilməsi ilə əhatəli islahatların həyata keçirilməsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi inkişaf modeli ölkəmizin dayanıqlı iqtisadi yüksəlişini təmin etməkdədir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "Azərbaycanla Misir arasında əlaqələr tarixi və dostluq xarakteri daşıyır"





***Azərbaycan Prezidenti İlham Əliyev mayın 25-də Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeqi qəbul edib. Qonaq Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.***

## *Azərbaycan Prezidenti İlham Əliyev Misir Senatının sədrini qəbul edib*

Abdel Vahab Abdel Razeq vurğuladı ki, Misir Prezidenti dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayır. Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Senatın sədri Azərbaycanla Misir arasında əlaqələrin tarixi və dostluq xarakteri daşıdığını deyərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiklərini qeyd etdi.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Əbdülfəttah əs-Sisinin Azərbaycana, özünün isə Misirə səfərini, bu səfərlər çərçivəsində Misir Prezidenti ilə görüşlərini və apardığı müzakirələri məmnunluqla xatırladı. Görüşdə əlaqələrimizin inkişafında iki ölkənin qanunverici orqanlarının əməkdaşlığının və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin mühüm rola malik olduğu vurğulandı. Söhbət zamanı Azərbaycanla Misir arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# "Ukraynaya humanitar yardım bundan sonra da davam etdiriləcək"



## *Prezident İlham Əliyev Ukraynanın xarici işlər nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Ukraynanın xarici işlər naziri Andrey Sibiqanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Andrey Sibiqa Ukrayna Prezidenti Volodimir Zelenskinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan dövləti tərəfindən Ukraynaya göstərilən humanitar yardımlara görə təşəkkürlərini bildirdi, xüsusilə İrpen şəhərində həyata keçirilən layihələrin əhəmiyyətini vurğuladı. Andrey Sibiqa Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını ifadə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Volodimir Zelenskiyə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycan tərəfindən Ukraynaya humanitar yardımın bundan sonra da davam etdiriləcəyini bildirdi. Söhbət zamanı Azərbaycanın və Ukraynanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri qeyd olundu. Ölkələrimiz arasında energetika, bərpaolunan enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı sahələrində əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Anna Stamou: "İslamofobiya bir zəhərdir"




**İslamofobiya bir zəhərdir. Bu konfransda gənclərin iştirakını görməkdən böyük məmnunluq hissi duyuram. İslamofobiya strateji bir prosesdir. Uzun illər ərzində planlaşdırılmış şəkildə və müxtəlif üsullarla həyata keçirilir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Yunanıstan Müsəlmanlar Assosiasiyasının Marketinq və İctimaiyyətlə Əlaqələr üzrə məsul şəxsi Anna Stamou mayın 26-da Bakıda keçirilən "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfrans çərçivəsində təşkil olunan "Qadınlar, kimlik və stereotiplər: Din və mədəni önyarğıların kəsişməsində naviqasiya" adlı panel sessiyada çıxışı zamanı səsləndirib.**

O bildirib ki, artıq islamofobiyaya qarşı konkret strategiyalar formalaşdırmalı və tədbirlər görməliyik. "Müsəlmanlara qarşı təhqir və ayrı-seçkilik məqsədilə kifayət qədər vəsait xərclənir. İslamofobiya ilə bağlı sadəcə təriflər vermək kifayət deyil. Bu, real və neqativ bir fenomendir və ona qarşı əməli tədbirlər görülməlidir", – deyə Anna Stamou qeyd edib.

O əlavə edib ki, xüsusilə gənclərə yönəlik təqaüd proqramlarının həyata keçirilməsi və onların potensialına investisiya qoyulması vacibdir. "Müsəlman qadınlar yüksək bacarıqlara sahib olsalar da, cəmiyyətdə uğur qazanmaq onlar üçün çox zaman asan olmur", – deyə o çıxışını tamamlayıb.

# Türkiyə mediası: "Prezident İlham Əliyev islamofobiya ilə mübarizədə səyləri birləşdirməyə çağırıb"


TÜRKGÜN Türkçe Düşün Gündem Siyaset Türk Telekom Spor Dünya Ekon

Türkgün > Dünya > İlham Aliyev'den Müslüman ülkelere çağrı: Birlik olalım...

**İlham Aliyev'den Müslüman ülkelere çağrı: Birlik olalım...**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, son yıllarda dünya genelinde hızla yayılan Müslüman karşıtlığının (İslamofobi) ciddi boyutta bir tehdit oluşturduğunu belirterek, Müslüman ülkelere çağrıda bulundu.


AKSİYON GÜNDEM FİNANS DÜNYA SPOR MEDYA SAĞLIK MAGAZİN EĞİTİM TEKNOLOJİ YAŞAM

**Azerbaycan Cumhurbaşkanı Aliyev, İslamofobi ile Mücadele Çağrısında Bulundu**

Aliyev, İslamofobi'ye karşı Müslüman ülkeler birleşmeli, adaletsizliğe karşı tek ses olmalı diyor.

ÇOK OKUNAN HABERLER

1 İstanbul'da 'Türkiye'de Etiyopya Günü' Programı Düzenlendi

2 Azerbaycan Cumhurbaşkanı Aliyev, İslamofobi ile Mücadele Çağrısında Bulundu


**Azerbaycan Cumhurbaşkanı Aliyev'den İslamofobi'ye karşı birlikte mücadele etme çağrısı**


Türkiyənin aparıcı informasiya agentlikləri, telekanalları, qəzet və xəbər portalları mayın 26-da Bakıda işə başlayan "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda ikigünlük beynəlxalq konfransı geniş işıqlandırır. Qardaş ölkənin media orqanlarında dərc olunan materiallarda, habelə reportajlarda Azərbaycan Prezidenti İlham Əliyevin iki gün


TRT HABER SICAK SAVUNMA ÇOCUK ÖZEL HABER DOSYA HABER DİĞER

**Aliyev'den İslam düşmanlığına karşı birlikte mücadele etme çağrısı**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, son yıllarda dünya genelinde hızla yayılan Müslüman karşıtlığının (İslamofobi) sistematik boyut kazanarak küresel ölçekte ciddi tehdit oluşturduğunu belirterek, Müslüman ülkelere bu tehdide karşı birlikte mücadele etme çağrısında bulundu.

davam edəcək müzakirələrin iştirakçılarına müraciətinə xüsusi diqqət yetirilib. Əsas diqqət Azərbaycan liderinin müsəlmanlara qarşı nifrət ritorikası ilə mübarizədə birgə addımlar atmağa çağırışına yönəlib. Azərbaycan Prezidentinin söz azadlığı adı altında İslama və müsəlmanlara qarşı hücumları qəbuledilməz adlandırdığı vurğulanır.

# Bakıda "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfrans işə başlayıb






***Mayın 26-da Bakıda "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda ikigünlük beynəlxalq konfrans işə başlayıb. Konfrans Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününün 3-cü ildönümünə həsr olunub. G20 Dinlərarası Forumu (IF20), İƏT, ICESCO, Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzi (DICID), İnsan Qardaşlığının Ali Komitəsi, Müsəlman Ağsaqqallar Şurası, Almaniya Müsəlmanlarının Mərkəzi Şurası, EULEMA - Avropa Müsəlman Liderləri Məclisi və Beynəlxalq Müsəlman Forumu konfransın xarici tərəfdaşları sırasında yer alır. Açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına mğraci tini oxuyub. Daha sonra islamofobiya haqqında qısametrajlı filmin təqdimatı olub.***

Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, islamofobiya bu dövrün narahatedici reallıqlarından biri və ayrı-seçkiliyin açıq təzahürüdür. Təəssüf ki, bir çox Qərb cəmiyyətində bu ayrı-seçkilik forması artıq normallaşır. Xüsusilə Fransa kimi ölkələrdə sekulyarizmin adı altında müsəlman icmalarının damğalanması ciddi narahatlıq doğurur. Eyni şəkildə Hindistanda dini millətçiliyin yüksəlişi nəticəsində müsəlmanlara qarşı artan təcrid və düşmənçilik müşahidə olunur.

"İslamofobiya qlobal miqyasda artan təhlükəli tendensiyanın tərkib hissəsidir. Bəziləri islamofobiyanı ayrı bir diskriminasiya forması kimi tanıyır, digərləri isə onu antimüsəlman nifrəti və ya dini irqçilik kimi adlandırmağı təklif edir. Mən düzgün terminologiyanın əhəmiyyətini anlayıram və dilin önəmini dərk edirəm. Ancaq inanıram ki, bu fenomenin müxtəlif kontekstlərdəki dərinliyini tam əks etdirəcək tək bir termin yoxdur. Əsas odur ki, islamofobiyanın acı bir reallıq olduğunu və müxtəlif bölgələrdə fərqli formalarda sosial və siyasi sahələrdə getdikcə daha çox yer aldığını qəbul edək. O, birmənalı şəkildə diskriminasiya forması kimi tanınmalıdır. Ancaq bu yolla ona qarşı effektiv mübarizə apara bilərik", - deyə R.Həsənov vurğulayıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev qeyd edib ki, nifrət cinayətləri və müsəlman irsinə məxsus abidələrin məhv edilməsi də daxil olmaqla, müsəlman icmalarına qarşı həm dövlət tərəfindən, həm də cəmiyyət daxilində baş verən ayrı-seçkilik halları ilə mübarizə aparmaq üçün beynəlxalq səviyyədə təcili tədbirlərin görülməsi zərurəti daha da aktuallaşır. O bildirib ki, Avropada ifrat sağçı siyasi qüvvələrin yüksəlişi İslam ənənələrini məhdudlaşdıran tədbirlərin görülməsinə səbəb olur. Bunu da tez-tez "assimilyasiya" və ya "inteqrasiya"nı təşviq etmək bəhanəsi ilə pərdələməyə çalışırlar.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, Azərbaycanın dini müxtəlifliyə verdiyi dəyər, multikulturalizm ənənələri və islamofobiyaya qarşı tutduğu prinsipial mövqe bütün dünya üçün nümunəvidir. Şeyxülislamın sözlərinə görə, Prezident İlham Əliyev bu mənəvi irsin qorunmasına və inkişafına xüsusi diqqət yetirir. Onun rəhbərliyi ilə İslam mədəniyyəti və dini azadlıqlar ölkəmizdə daim yüksək səviyyədə dəstəklənib. Prezident İlham Əliyevin İslam dünyasında həmrəylik və əməkdaşlıq istiqamətində atdığı addımlar digər İslam ölkələri üçün nümunə təşkil edir.

"Din adı ilə siyasi məqsədlər güdən, dini dəyərlərdən sui-istifadə edən şəxslərə və qruplara qarşı həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə ciddi mübarizə aparmaq vacibdir. Bu məsələdə Azərbaycan fəal və prinsipial mövqe tutur. Biz dinlərarası əməkdaşlıq sahəsində nümunəvi təcrübəyə sahibik və bu model dünya üçün də aktuallıq kəsb edir. Lakin təəssüflə qeyd etməliyik ki, bu gün dünyanın bir çox yerində, xüsusilə də bəzi Qərb ölkələrində islamofobiya narahatedici dərəcədə artmaqdadır. Fransada müsəlmanlara qarşı qeyri-insani münasibət, Məhəmməd Peyğəmbərin karikaturalarının çəkilməsi, "Qurani-Kərim"in yandırılması və digər təhqiramiz aktlar ürəkağrısı doğurur. Bu cür halların azad söz adı altında leqallaşdırılması, əslində, islamofobiyanın dərin köklərinin göstəricisidir.

Konfransın açılış mərasimində BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun tədbir iştirakçılarına videomüraciəti nümayiş etdirilib.

Müraciətdə bildirilib ki, müsəlmanlar institusional ayrı-seçkilik və sosial-iqtisadi məhdudiyyətlərlə üzləşirlər. Bu cür qərəzli yanaşmalar müsəlmanların damğalanmasında və əsassız irqi profilləşdirilməsində özünü göstərir və qərəzli media təmsilçiliyi, bəzi siyasi liderlərin antimüsəlman ritorikası və siyasəti ilə gücləndirilir. Migel Anxel Moratinos deyib ki, insanlara hər yerdə dinc şəkildə, qorxmadan inanclarını həyata keçirmələrinə icazə verilməlidir: "Dünyanın hər yerində dini obyektlərə hücum edilib. Bütün ibadət yerləri terror və qan tökülmə yeri deyil, təhlükəsiz sığınacaq olmalıdır. Biz hamımız hər cür nifrət və ayrı-seçkiliyə qarşı çıxmalıyıq".

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibinin xüsusi elçisi Mehmet Paçacı Baş katib Hissein İbrahim Tahanın konfrans iştirakçılarına müraciətini oxuyub. Bildirilib ki, islamofobiya təkcə dini ayrı-seçkilik deyil, həm də qərəzli münasibətin, yanlış təsəvvürlərin və nifrət ritorikasının təzahürüdür. Ona qarşı aparılan mübarizə isə yalnız bir bölgəyə deyil, bütövlükdə bəşəriyyətin ortaq dəyərlərinə xidmət edən universal çağırışdır. Bu baxımdan, bu cür beynəlxalq tədbirlər islamofobiyaya qarşı mübarizədə uğurlu və təsirli platforma rolunu oynayır. "Xüsusilə beynəlxalq məlumatlandırma istiqamətində Azərbaycan böyük nailiyyətlərə imza atıb. Dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltmək, ictimai rəy yaratmaq və dini ayrı-seçkiliyin fəsadlarını ifşa etmək baxımından görülən işlər olduqca dəyərlidir." - deyə müraciətdə qeyd edilib.

Doha Beynəlxalq Dinlərarası Dialoq Mərkəzinin sədri İbrahim Saleh Əl Naimi diqqətə çatdırıb ki, islamofobiyaya qarşı stereotiplərin kökündən sarsıdılması üçün hamımız məsuliyyət daşıyırıq. Bu, praktiki tədbirlərin görülməsini zəruri edir. İslamofobiya dünyada artıq universal məsələyə çevrilib. Tənqidi fikirlərin səsləndirilməsinin nəticəsi olaraq müsəlmanlara qarşı hücumlar baş verir. Naimi bildirib ki, bu tədbirin əsas məqsədi bütün sübutları toplamaq, siyasi məsələləri gündəmə gətirmək və kənarda qalan səsləri ucaldaraq eşitdirməkdir: "Bu konfrans kollektiv deklarasiya rolunu oynayacaq. İslamofobiya ilə mübarizə, eyni zamanda, dinc və yanaşı yaşamaq məsələsidir. İslamofobiya təkcə dini məsələ deyil, bu, insan hüquqları ilə bağlı problemdir. Hazırda yaşadığımız dünyada islamofobiya əxlaqi deyil, insani məsələyə çevrilib. İslamofobiya insan hüquqlarının alçaldılmasıdır. Biz bütün formalarda buna qarşı mübarizə aparmalıyıq".

İnsan Qardaşlığının Ali Komitəsinin Baş katibi Xalid Əl Qaiti bildirib ki, bu gün keçirilən beynəlxalq konfransda biz yalnız bir problemi müzakirə etmirik, eyni zamanda, humanist, ədalətli və tolerant bir dünyanın qurulması üçün ortaq öhdəliklərimizi nəzərdən keçiririk. Bu kontekstdə, Azərbaycanın multikulturalizmə, dinlərarası harmoniyaya yanaşması, həmçinin islamofobiyaya qarşı apardığı ardıcıl və səmərəli mübarizə olduqca nümunəvidir.

Yüzdən artıq xarici qonağın iştirak etdiyi konfransda "İslamofobiyada qlobal trendlər: Çağırışlar və cavablar", "Siyasətdə müsəlmanlara qarşı nifrət: Hüquqi çərçivələr və vəkillik strategiyaları", "Fərqli kontekstlərdə islamofobiya: Regional perspektivlər", "İslamofobiya media və rəqəmsal platformalarda: Süni intellekt sistemləri islamofob qərəzi necə yaya və gücləndirə bilər", "Qadınlar, kimlik və stereotiplər: Dini və mədəni önyarğıların kəsişməsində naviqasiya", "Avropada müsəlmanlara qarşı qanunvericiliyin institusionallaşdırılması: İslamofob təbliğatın radikallaşması fonunda müsəlmanlara qarşı ritorika", "Dəyişən dünyada İslam mədəni irsinin qorunması", "Gənclərin inklüzivliyə doğru çağırışı: Qərəzə və yanılmaya qarşı mübarizə" mövzularında müzakirələr aparılacaq.

# Müstəqillik Günü ərəfəsində növbəti humanist addım



***28** May Müstəqillik Günü ərəfəsində Prezident İlham Əliyev növbəti dəfə humanizm dəyərlərini rəhbər tutaraq "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb. Sərəncam çoxsaylı ailələrə sevinc bəxş etdi. Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq daha bir humanist addım atıldı.*

Cinayət qanunvericiliyinə əsasən, əfvetmə Prezident tərəfindən həyata keçirilir və bu aktla məhkum olunmuş şəxs ya cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə, habelə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Prezident İlham Əliyev budəfəki əfv Sərəncamı ilə 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad edilib. Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 1 nəfər cəzadan azad edilib.

## 7 AMNİSTİYA AKTI VƏ 32 ƏFV FƏRMANI

Azərbaycanda bu humanist ənənənin əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər hakimiyyətə gəldikdən sonra əfv və amnistiya təsisatları yaradılıb, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı qəbul edilib. Ulu Öndər tərəfindən imzalanan əfv fərmanları ilə üç mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edildilər. Bu fərmanlar ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad olundu. Ulu Öndər Heydər Əliyevin böyük humanistlik nümayiş etdirərək, imzaladığı əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismi bağışlanıb. Onu da xüsusi olaraq vurğulayaq ki, Ulu Öndər Heydər Əliyevin humanizminin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırıldı. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Ümummilli Lider Heydər Əliyev 1998-ci il fevralın 3-də Azərbaycan Respublikasının Milli Məclisinə tarixi müraciətində insan həyatının ən ali dəyər olduğunu, yaşamaq hüququnun hər bir insanın təbii haqqı olduğunu vurğulamışdır. Ölüm hökmünün insan ləyaqətinə və ümumən insan hüquqları ideyasına zidd olduğunu bildirərək Ümummilli Liderimiz ölüm hökmünün tətbiqini qeyri-insani və qəddar tədbir kimi qiymətləndirmişdir. Humanizm, ədalət və azadlıq kimi uca ideallara söykənən, Ulu Öndər tərəfindən 1998-ci ildə irəli sürülən təşəbbüs sayəsində Azərbaycan Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə tarixdə imza atdı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra məhz Ulu Öndərin sayəsində ölkəmizdə hüquq, sosial və iqtisadi sahədə ardıcıl, məqsədyönlü islahatların həyata keçirilməsi, insan hüquqlarına dair strateji əhəmiyyətli sənədlərin qəbul olunması insan hüquqlarının müdafiəsində yeni və sistemli təcrübə formalaşdırdı.

Ümummilli Liderin siyasətini davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev humanizm ənənələrini yüksək səviyyədə davam etdirərək, bir sıra əfv və amnistiya barədə sərəncamlar imzalayıb. 2007-ci ildə Azərbaycanın Birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar da Ulu Öndərin əsasını qoyduğu humanizm ənənələrinin davamının təzahürüdür.

## VƏTƏNDAŞ AMİLİNƏ SÖYKƏNƏN SİYASƏT

Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq, əfv haqqında imzaladığı fərman və sərəncamlar minlərlə məhkumun əfv olunmasına səbəb olub. Prezident İlham Əliyevin 2023-cü il mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncamı müstəqillik tarixində ən böyük əfv aktı idi və humanizm prinsipinin aliliyini təzahürünə çevrildi. Sərəncama əsasən, 801 məhkum əfv olundu, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edildi. Xüsusilə qeyd etmək lazımdır ki, əfv edilmiş məhkumlardan 14-ü əcnəbi idi. Azərbaycan Prezidentinin növbəti Sərəncamı bir daha göstərir ki, vətəndaş amili dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Dövlət başçısının sözügedən Sərəncamı Azərbaycan ictimaiyyətinin nümayəndələri tərəfindən çox yüksək qiymətləndirilir və bu addım əfv olunanların dövlətin onlara inam və etibarının təzahürüdür. Onların hər biri üzərlərində bu diqqəti hiss edərək cəmiyyət üçün layiqli bir vətəndaş olaraq həyat yolların davam etdirəcəklər.

**Zümrüd BAYRAMOVA**



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Ölmüş KİNOMUZ...

*Biləcəri Qəbiristanlığından Kann Festivalına boylanan kinematoqrafiya haqqında fikirlərim...*

Ədəbiyyatımız kimi milli kinomuz da artıq keçmişdə qalıb, toz basmış xatirə kimi arxivə atılmış vəziyyətdədir. Necə ki, ötən əsrin 90-cı illərindən sonra ədəbiyyatımız bar verməyən qurumuş ağac kimi birdəfəlik quruyub getdi, eləcə milli kino sənəti də artıq 20 ildən çoxdur dişə dəyəsi heç nə istehsal edə bilmir, yadda qalacaq bircə epizodu da xatırlanmır.

Düzdür, rəhmətlik Ceyhun Mirzəyevin "Fəryad"ı, rejissor Elxan Cəfərovun "Dolu"su Azərbaycan müasir kino tarixi üçün görkəmli yerə layiqdir. Qarabağ müharibəsindəki vətənpərvər mübarizəmizin, yaşadığımız tarixin filmə köçürüldüyü gözəl ekran işləridir bu iki film. Lakin acınacaqlısı odur ki, biz heç olan-qalan bu iki filmimizi də layiqincə gənc nəsillərə sevdirə bilmədik. Ermənilər qondarma, saxta "tarixlərini" filmlərə köçürüb Avropanın göbəyindəki fransızlara, almanlara, ingilislərə, okeanın o tayındakı amerikalıya, bizim Şərqdəki müsəlmanlara həqiqət kimi qəbul etdirmək üçün iş aparır, biz bədbəxtlər heç öz vətənpərvər filmlərimizi uşaqlarımıza sevdirmək üçün tutarlı bir iş belə görə bilmirik. Ağlamalı faktdır, deyilmi? Qabaqlar məktəb şagirdləri kino qəhrəmanlarına bənzədərdilər özlərini. İndi Tik tok-dakı cinsi azlıqlara, ləçər "tiktoker" fahişələrə güclü rəğbət var yeniyetmə və gənclər arasında. Yalan deyirəm?, - qəti!

Hələ mən hər il milyonlarla vəsait ayrılan diaspora siyasətinin milli kinolarımızı dünyadakı azərbaycanlılara sevdirmək üçün nə iş gördüyünü soruşmuram. Onsuz da soruşmağımın özü artıqdır. Diaspora işimiz də ədəbiyyatımızdan və kinomuzdan heç nə ilə fərqlənmir. Əlamətdar günlərdə səfirliklərin sürücü və xadimələrini zala toplayıb iclas keçirməklə başımızı girləyib gedirik..

Nə isə gələk əsas məsələyə. Bu yaxınlarda ənənəvi Kann Kino Festivalı olub və azərbaycanlı müğənni Röya Ayxan həmin Kann Festivalındakı qırmızı xalının üstündən o yana da keçib, bu yana da keçib və bizim kino camiəsi qəzəblənib ki, bəs bu tədbirə niyə müğənni R.Ayxan dəvətlidir. Hətta bizim kino xadimlərimiz onun qırmızı xalçanın üstündə poz verib bunu reklam etməsinə bərk qəzəbləniblər. Əlbəttə, bu film festivalına ödəniş edib qatıla da bilərsən, rəsmi dəvət əsasında gedə də bilərsən. Həm də R.Ayxan bu Festivala Azərbaycan kino nümayəndəsi, rejissor və aktyor kimi dəvət olunmayıb axı.

Hə, o məsələ də var ki, R.Ayxan onu tənqid edən kino xadimi, professor Ayaz Salayevə xoşagəlməz şəkildə cavab verib. Əlbəttə, bu jarqonla cavab vermək qəbuledilməzdir. Üstəlik, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev də müğənni xanıma qarşı kəskin mövqe tutub. Məsələnin "mustafası" budur ki, kino işlərinə baxan bizim camia bir də onda ayılıblar ki, bəs Röya xanım Kann Festivalının qırmızı xalısında poz verir. Bunlar da deyirlər ki, müğənninin ora getməsi qəbuledilməzdir. Bir az da min illərdir ki, bizimlə yol gələn paxıllıq, özümüzün özümüzə qənim kəsilmək xəstəliyimiz bu məsələdə ziyadə qabarıq olub. Lakin və amma... dəyərli kino xadimlərimiz, siz müğənni R.Ayxanı "topa" tutanda heç fikirləşdinizmi ki, o xalının üstündə "Hollivud" ulduzları ilə birgə məhz sizlər poz verməli idiniz və orada siz, burada da bizlər milli kinomuzun uğurları ilə qürur duymalı idik. Qürur duymalı idik, amma duymadıq. Əvəzində müğənni xanımın qırmızı xalı üzərində poz verməsinə görə ona olmazın hücumlarını görmüş olduq. Bəs sizdən soruşuram, hanı 44 günlük zəfər müharibəsində düşmənlə əlbəyaxa döyüşə girərək, torpaqlarımızı erməni faşistlərindən azad edən igid oğullarımızın qəhrəmanlığından bəhs edən vətənpərvər filmləriniz, hanı yeni azərbaycanlı nəsilləri cuşa gətirən, dillər əzbəri olan serial və tamaşalar? – yoxdur! Bu, dəhşətin dəhşətidir. 44 gündə yüz ildə bir baş verən tarixi qələbə qazanasan, amma bu barədə səs gətirən, reytinq qıran bircə bədii filmin, serial və tamaşan olmasın. Erməni diasporu saxta tarix quraşdırıb, sonra da o yalançı tarixi səhnələşdirib erməni uşaqlarının beyninə yeridir, mənimkilər də gənclərimizə vətənpərvərlik aşılayan tutarlı filmlər çəkmək əvəzinə, azərbaycanlı müğənninin qırmızı xalıda gəzişməsinə arvad qeybəti səviyyəsində "reaksiya" verirlər. Heyrət!!!

Əvəzində nə baş verir? Fahişəliyi, cinsi azlıqları, ərinə xəyanət edən "azərbaycanlı qadın" obrazını səhnələşdirib küçə səviyyəli iyrənc "filmlər" çəkir, gənclərin beynini məhv edir, tariximizi saxtalaşdırır, xalq olaraq bizi rüsvay edib sosial şəbəkə seqmentində biabırçı formada təqdim edir, bütün bunların əvəzində də milyonlar qazanırlar. Bütün bu baş verənlərə nə Mədəniyyət Nazirliyi, nə milli kino təşkilatlarımız bircə dəfə hərəkətə gəlib reaksiya vermirlər. Axı bu küçə səviyyəli adamların pul müqabilində çəkib təqdim etdikləri xalq biz deyilik cənablar!

Əlqərəz, Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ndə ilişib məhv olan ədəbiyyatımız kimi, Rasim Balayevin "Babək"inin xiffətini çəkməklə təsəlli tapan kinomuz da qara gündədir. Bizim aktyor və kino xadimlərimiz üçün də əla qırmızı xalı var. "Nizami" Kinoteatrında hər il düzənlənən və səs-sorağı Biləcəridən o tərəfə çıxmayan "Bakı Kann Festivalı". Boş, heç bir tamaşaçı rəğbəti qazanmayan, it-pişiyin belə maraq göstərmədiyi "filmlərinizlə" Bakıdakı qırmızı xalçanın üstündən o yana-bu yana keçib gedin. Təsəlliniz budur zatən...




# İran-Azərbaycan münasibətlərinin fonunda HAYLARIN BƏDBİNLİYİ

***Ermənistan tərəfi, hansı rakursdan baxılsa, çox imkanları əldən verib və hazırda hər istiqamətdə məğlub duruma görə aciz vəziyyətdədir. Hətta ölkəmizin uğurlarına görə də hayların qısqanclıqla yanaşdıqları göz önündədir. Hər halda, davamlı şəkildə uğursuzluqla qarşılaşan bir toplumun qonşularının uğurlarından qıcıqlanması məhz açıq şəkildə etiraf da edilirsə, deməli, qeyd olunan acizlik də, qısqanclıq hissi keçirmələri də təkzibedilməzdir. Məsələ burasındadır ki, haylar öz vəziyyətlərinin getdikcə pisləşdiyini və bütün müstəvilərdə məğlub duruma düşdüklərini gördükcə, daha da bədbin olurlar və bu bədbinlik hər mənada özünü göstərir.***

### Hayların təlaşı və İranın dəstəyindən məhrum olmaq qorxusu

İran İslam Respublikasının rəhbərinin və digər iştirakçıların "Araz-2025" birgə təlimlərində iştirak etmək üçün Azərbaycana gəlmələri də hayların kürkünə birə salıb. Xüsusən də həmin təlimlərin məhz işğaldan azad olunan ərazilərdə, Qarabağ ərazilərində keçirildiyini eşidən ermənilər yuxularını da qarışdırıblar. Yuxularını qaçıran haylar belə hesab edirlər ki, bu birgə təlimlər İran prezidenti Məsud Pezeşkiyanın Bakıya son rəsmi səfərinin nəticəsidir. Daha dəqiq desək, İran prezidentinin Azərbaycana rəsmi səfərindən, daha da yaxşılaşmaqda olan İran-Azərbaycan münasibətlərindən bərk narahat olduqlarını erməniləri qətiyyən gizlətmirlər, əksinə, iki qonşu ölkənin münasibətlərinin beləcə yaxşılaşmasından və daha da yaxınlaşmasından heç də razı olmadıqlarını, qorxuya belə düşdüklərini açıq şəkildə etiraf da edirlər.

Ermənistana məxsus mətbuat səhifələri yazırlar ki, Bakıya İranın 120 nəfərdən ibarət nümayəndə heyəti gəlib və bu yazılardan belə görünür ki, statistik rəqəmlər belə hayları bərk qorxuya salıb. İran prezidentini müşayiət edən iqtisadi nümayəndə heyətinə özəl sektorun nümayəndələrinin, İran-Azərbaycan parlament dostluq qrupunun üzvlərinin, həmçinin İranın dörd şimal-qərb əyalətinin valilərinin daxil olması barədə də təəssüf hissi ilə qeyd edən erməni mətbuatı "bərk qəzəblənmiş" olduğunu da gizlətmir. Hətta qeyd olunur ki, İranın və Azərbaycanın növbəti beş il ərzində ikitərəfli ticarət dövriyyəsini ildə 10 milyard dollara çatdırmaq barədə Bakıda elan olunması, hər iki ölkənin qarşılarına belə bir məqsəd qoyması haylar üçün heç də arzuolunan deyil. Əslində, həqiqətən də bu, haylar üçün arzuolunan sayıla bilməz, çünki onlar daim İran tərəfindən özlərinə bir dəstək gözləyiblər və indi bu dəstəkdən də məhrum olmaq qorxusu yaşamaları başadüşüləndir.

### Azərbaycanın regional və qlobal müstəvidə uğurlarını həzm edə bilməyən haylar bədbin görünürlər

"Biz qəti şəkildə inanırıq ki, Azərbaycan xalqının hüquqlarına hörmət edilməli və Qarabağ Azərbaycana məxsus olmalıdır. Qarabağ Azərbaycan ərazisinin ayrılmaz hissəsidir və biz buna hörmətlə yanaşırıq", deyə İran lideri Pezeşkianın Azərbaycan Prezidenti cənab İlham Əliyevlə görüşü zamanı bəyan etdikləri Ermənistan tərəfini, bütövlükdə erməni cəmiyyətini lap böyük bədbinliyə salıb. İndi ermənilər açıq şəkildə bildirirlər ki, rəsmi Tehranın mövqeyində çox "nəhəng" transformasiya baş verib. Məsələ burasındadır ki, haylar hələ də başa düşə bilmirlər ki, İranın məhz Azərbaycanla münasibətləri daha da yaxşılaşdırmağa maraqlı olması günün tələbidir və hər bir dövlər, xüsusən də qonşu ölkə rəzalət və səfalət içərisində boğulan yox, inkişaf edən, dinamik inkişafı təkzib edilə bilməyən qonşusu ilə əlaqələri yaxşılaşdırmaqda maraqlı olmalıdır və olur da.

Görünən odur ki, Ermənistan rəhbərliyi, hansı istiqamətdən, hansı mənadan yanaşılsa belə, bütün imkanlarını artıq əldən verib və bunu erməni cəmiyyəti artıq açıq şəkildə etiraf da edir. Etiraf edir ki, haylar bütün bunların, yanlış siyasəti aparmalarının, bütün uğursuzluqlarının nə ilə nəticələndiyini kənardan izləməyə məcbur qalıblar. Hətta ermənilər etiraf da edirlər ki, rəsmi Tehranın mövqeyinə təsir etmək imkanları da yoxdur və tamamilə çarəsiz vəziyyətdədirlər. Onlar məhz Rusiya-Azərbaycan münasibətlərində də eyni vəziyyətlə qarşılaşdıqlarını qəbul edirlər və rusların da məhz ölkəmizlə münasibətlərin yüksək səviyyədə olduğunu "ürək ağrısı" ilə müşahidə etdiklərini gizlətmirlər. Daha dəqiq desək, bu gün Azərbaycanın regional və qlobal müstəvidə uğurlarını həzm edə bilmədikləri kimi, öz uğursuzluqlarını da görməkdən şad deyillər və bu onlara bədbinlik hissi yaşadır.

Hayların bədbinliklərinin səbəbləri və səhvlərinin məntiqi nəticələri

İşğalçılığı dövlət siyasəti olaraq qəbul edən və nəticədə də hazırki məğlub duruma düşən haylar bəlkə də elə zənn edirdilər ki, İran onlar üçün "qalxan" olacaq və bundan sonra da İrəvan məhz Tehranın kölgəsində özünü hiss edəcək. Bəli, ilk baxışdan belə də görünürdü. Bu vaxta qədər İran tərəfinin Ermənistana hansı şəkildə dəstək ifadə etməsi heç də sirr deyil. Təkcə biz yox, bütün dünya ictimaiyyəti yaxşı bilir ki, Tehran bu vaxta qədər İrəvana dəstək nümayiş etdirib. Məhz 44 günlük müharibənin acı məğlubiyyətindən sonra hayların bir qədər "rahatlaşması" da elə bu səbəbdən idi. Amma belə görünür ki, erməni cəmiyyəti həmin o "rahatlığı" itirib və bədbinliyə də məhz bu səbəbdən düşüb.

Məsələ burasındadır ki, bu nəticə əvvəlcədən də gözlənilən idi. Sadəcə, bu nəticəni dərk etmək üçün görünür hayların dərrakələri kifayət etmirmiş. Hər halda, hər bir erməni bilməli idi ki, əvvəla, İran məhz Ermənistanı sonsuza qədər himayəsi altında saxlaya bilməz və heç saxlamaz da. Xüsusən də, belə bir himayəni göstərən Rusiyaya qarşı ermənilərin xəyanətini müşahidə etdikdən sonra buna heç inanılası da deyil. İranlıların bir qədər əvvəl rusların vəziyyətini "seyr etmələri", ələlxüsus da, hayların onlara qarşı xəyanətkarcasına davranmaları fonunda hansı şəkildə dəyişkənlik müşahidə etmələri kifaət edir. Yəqin ki, ruslara necə xəyanətkarlıqla cavab verən haylara İran tərəfi "bel bağlaya" bilməzdi və bunu ermənilər zamanında başa düşməli idilər. Əgər başa düşməyiblərsə, bunun özü də elə onların səhvidir.

Digər tərəfdən də, axı İranın bir dövlət olaraq öz maraqlarının olduğu barədə də ermənilər düşünsəydilər, başa düşərdilər ki, gec-tez onlar "oyundankənar" vəziyyətdə qalmaları məntiqi nəticədir. İran ilə Azərbaycan arasında olan münasibətlərin tarixi köklərini də haylar nəzərə almalı idilər. Özlərinin uydurduqları yalançı tarix deyil, tarixi faktlar barədə düşünməli və nəticə çıxarmalı idilər. Nəticə çıxarmalı idilər ki, İranın Azərbaycanla münasibətlərə üstünlük verəcəyi məntiqi sayılır, Ermənistanla yox. Üstəlik, haylar özlərinə belə bir sual verməli idilər ki, İran niyə Ermənistana maraq göstərməlidir? Axı Ermənistanın nəyi var ki, bu da İranı cəlb etsin? Ermənistan elə bir dövlət, elə bir ölkə deyil ki, onun heç olmasa regional müstəvidə nüfuzu olsun və belə bir səfalətin, xüsusən də hayların məğlubiyyətindən sonrakı həmin ölkənin rəzalətinin fonunda hansı maraqdan söhbət gedə bilər?

Təbii ki, İranın məhz Azərbaycana marağı tamamilə məntiqidir. Azərbaycan həm regional, həm də qlobal müstəvidə əvvəla, nüfuz, eləcə də söz sahibidir. Ölkəmizlə, ölkəmizin mövqeyi ilə hesablaşılır. Digər tərəfdən də axı Azərbaycan əgər Avropa üçün belə enerji resursları baxımından çox lazımlı, çox vacib ölkə olaraq qəbul edilirsə, deməli, İran üçün lap əvvəldə belə qəbul olunmaqdadır. Bu gün Azərbaycanın faydalı təbii ehtiyatları bütün dünyanın marağına səbəb olubsa, ölkəmizin dinamik inkişafı, ölkəmizin dünyanın bir çox ölkələri ilə əlaqələrinin daha da artması, getdikcə yüksələn xətt üzrə inkişafı diqqətdən yayınmırsa, İranın diqqətindən necə yayına bilərdi? Bunu, yəni İranın belə məqamları görməyəcəyini, Tehranın bunun fərqində olmayacağını xəyal etmək belə ermənilərin ən böyük səhvlərindən biri olub və bu gün bədbinliklərinin səbəblərindən biri də məhz budur...

***İnam Hacıyev***

***Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının həyatına əlamətdar tarixi hadisə kimi daxil olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il may ayının 28-də "İstiqlal Bəyannaməsi"nin elan olunması ilə yaranmışdır. İstiqlal Bəyannaməsinin qəbul edilməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi: Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.***




# Şərq aləmində ilk demokratik və hüquqi dövlət!

Ulu Öndər Heydər Əliyev deyirdi: "Əsrin əvvəlində – 1918-ci ildə Azərbaycan xalqı öz müstəqilliyinə nail ola bildi, xalq cümhuriyyəti yarandı. Azərbaycanda Şərq aləmində ilk dəfə demokratik, hüquqi dövlət yarandı, xalq cümhuriyyəti qısa bir zamanda çox işlər gördü. Ən mühümü odur ki, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarını qurdu, Azərbaycan dövlətinin, hökumətinin təsisatlarını yaratdı".

71 il sovet dövründə yaşayan Azərbaycan, müstəqilliyini bərpa etdikdən sonra, hər il ölkəmizdə 28 May Müstəqillik Günü böyük təntənə ilə qeyd edilir. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi.

AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rusbolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu.

1991-ci ildə müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası, 1918-1920-ci illərdə, 23 ay ərzində, mövcud olan və müsəlman Şərqində ilk dünyəvi-demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir.

## XALQ TƏHSİLİ VƏ MAARİFLƏNDİRMƏ ÜZRƏ İLK NAZİRLİK

Qısa müddətdə, tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqları verdi. Azərbaycan Xalq Cümhuriyyəti, xüsusən, təhsilin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı sahəsində fəaliyyəti ilə yadda qalmışdır. Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib.

1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Dövlət Universitetinin təşkili haqqında qanun qəbul etdi və bununla milli təhsil ocağının əsası qoyuldu.

Demokratik Respublika dövründə kitabxana və muzey işinin quruluşunda böyük yeniliklər edilmişdir. Azərbaycan hökuməti geniş oxucu kütləsinin ehtiyaclarını ödəmək üçün Bakıda ümumi kitabxana təşkil etmək məsələsini qaldırmışdır. 1920-ci ilin apreli üçün Azərbaycanda 95 min nüsxə kitab fondu olan 11 kitabxana var idi.

AXC dövründə Azərbaycanda ilk muzey "İstiqlal" Muzeyi təşkil olunmuşdur. Eyni zamanda, Bakıda Etnoqrafiya Muzeyinin yaradılması haqqında Maarif Nazirliyi qarşısında məsələ qaldırılmışdır. Xalq Cümhuriyyətinin zəngin və rəngarəng, orijinal mətbuatı olmuşdur. 1918-20-ci illərdə Bakıda, Gəncədə və respublikanın digər şəhərlərində onlarca qəzet və jurnal nəşr olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində aradan qaldırıldı.

## ÖLKƏNİN SƏHİYYƏ SİSTEMİ YARADILDI

Sağlam cəmiyyətlərdə vətəndaşların sağlığı durumunun qorunması həmişə önə çəkilib. Azərbaycan Xalq Cümhuriyyəti dövründə də bütün sahələrdə olduğu kimi, səhiyyə xüsusi diqqət ayırdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti yarandığı gündən əhalinin sağlamlığı qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər görmüşdür. Tarixi mənbələrdə qeyd olunduğu kimi, bu sahədə ən böyük uğurlardan biri ölkənin səhiyyə sisteminin yaradılması və təşkili işlərinə bilavasitə rəhbərlik edən dövlət icra orqanının - Səhiyyə Nazirliyinin yaradılması idi. Belə ki, Xalq Cümhuriyyəti hökumətinin ilk qərarlarından biri 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar idi. Nazir vəzifəsinə 1903-cü ildə Xarkov Universitetinin tibb fakültəsini bitirmiş, ixtisasca cərrah olan Xudadat bəy Rəfibəyov təyin edildi. Nazirliyin 5 əsas şöbəsi - şəhər və məhkəmə tibbi şöbəsi, tibbi statistika, əczaçılıq, kənd səhiyyəsi, baytarlıq və sanitariya şöbələri vardı. Nazirliyin göstərişi ilə əhaliyə dövlət hesabına pulsuz tibbi xidmətə keçilmiş, yeni müalicəxanalar, tibb məntəqələri açılmış, dərman anbarları, laboratoriya binaları tikilmiş, lazımi avadanlıqlar alınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, əhaliyə tibbi xidməti yaxınlaşdırmaq, epidemiyalara qarşı mübarizəni gücləndirmək üçün də hərtərəfli planlar işləyib hazırlamış, bununla əlaqədar qərar qəbul etmişdi. Qərarda hökumət təzə təşkil etdiyi Səhiyyə Nazirliyi qarşısında çox ciddi vəzifələr qoymuşdu. Onlardan ən önəmlisi əhalinin sağlamlığının qorunması üçün lazımi şəraitin yaradılması və antisanitariya ilə mübarizənin gücləndirilməsi idi.

Səhiyyə şəbəkəsinin genişləndirilməsinə başlandı. Kənd yerlərində xəstəxanalar, ambulatriyalar, feldşer məntəqələri və s. müalicə müəssisələri açıldı, yeni tibb ocaqlarının bünövrəsi qoyuldu. Dövlət tibb müəssisələrini dava-dərmanla, avadanlıqlarla təmin etmək məqsədilə lazımi tədbirlər görüldü. Bunun üçün dövlət aptek anbarı, laboratoriyası və s. yaradıldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökuməti sağlamlığın mühafizəsinə dair vəzifələr və tədbirlər barədə bir sıra qanun və qərarlar qəbul etdi. Cümhuriyyət Hökuməti tibb xidməti heyətini genişləndirmək məqsədilə səhiyyə sistemində qısamüddətli tibb işçiləri kursları açdı. Bütün bunların nəticəsi idi ki, Xalq Cümhuriyyəti dövründə kənd yerlərində Səhiyyə Nazirliyinə tabe olan 33 kənd xəstəxanası fəaliyyət göstərirdi. Onların hər birində 1 həkim, 2 feldşer və xidmətçi tibb bacıları işləyirdi. Bu tibbi personal 6 çarpayılıq kənd xəstəxanalarında xəstələrə xidmət edir, ambulator müalicəyə ehtiyacı olanlara isə pulsuz tibbi yardım göstərirdi. Bu dövrdə qeyri-hökumət tibbi cəmiyyət, birlik və təşkilatlarının da fəaliyyəti geniş vüsət almışdı. Bakı şəhəri həkimlər cəmiyyətinin əsas fəaliyyət istiqaməti sənaye gigiyenası, yatalaq epidemiyasının aradan qaldırılması olmuşdur. Cəmiyyət Bakı Dövlət Universiteti tibb fakültəsinin avadanlıqla təchiz edilməsinə yardım göstərmək üçün Avropanın aparıcı klinikaları ilə əlaqə yaratmışdı. Bakının tanınmış həkimləri təbabətin müxtəlif sahələrində elmi nailiyyətlərin mübadiləsi məqsədilə cəmiyyətdə məruzələr edirdilər. Onun nəzdində boş iş yerlərini qeydə almaq, işsizləri həmin yerlərə yerləşdirmək, onlara vaxtaşırı yardım göstərmək məqsədilə Həkimlərə yardım bürosu yaradılmışdı. 1919-cu ildə Bakıda təsis edilmiş qeyri-hökumət tibb cəmiyyətlərindən biri də Uşaq həkimləri dərnəyi idi. Dərnək uşaqlar və yeniyetmələr arasında yayılmış yoluxucu xəstəliklərin profilaktikası və müalicəsi sahəsində təcrübə mübadiləsi aparır, qabaqcıl müalicə üsullarının tətbiqinə səy göstərir, təbliğat və təşviqat işi ilə məşğul olurdu. 1920-ci ilədək Azərbaycanda, artıq 353 həkim, 450 orta tibb işçisi, 1123 yerlik xəstəxana var idi. 1920-ci ildə kənd xəstəxanaları şəbəkələrini genişləndirmək və bu məqsədlə 35 yeni xəstəxana və 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmiş və bunun üçün 43 milyon 321 min 950 manat pul ayırmışdı. Səhiyyənin dərman preparatları ilə düzgün təminatı tibbi-sağlamlıq işinin başlıca cəhətlərindən biridir. Elə bu səbəbdən də həmin dövrdə Səhiyyə Nazirliyinin əczaçılıq şöbəsi dərman preparatların alınmasını öz əlində cəmləşdirmişdi. Bakıda dövlət apteki və onun nəzdində dərmanların, bakterioloji preparatların, müalicə zərdablarının hazırlanması və tibbi-məhkəmə müayinələrinin aparılması üçün analitik laboratoriya təşkil olunmuşdu. Eyni zamanda, Bakıda yeni şəhər ambulatoriyaları, 9 aptek işə başlayaraq xəstələrə pulsuz xidmət göstərirdi.

## İSTİQLAL İDEYASI YENİLMƏDİ

Çox keçmədi ki, Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Bolşeviklər tərəfindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilmədi və 1991-ci ildə sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 71 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycanın müstəqilliyi yenə təhlükə qarşısında idi. Yalnız Ümummilli Liderin xalqın təkidli istəyinə səs verərək, hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini əbədi etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə separatçıların ölkəni parçalamaq kimi məkrli niyyətlərinə son qoyuldu. 1993-cü ildə müstəqilliyimiz böyük təhlükə ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə sülh və inkişaf gətirdi. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Müstəqil Azərbaycanın Yeni Konstitusiyası qəbul olundu. Azad və demokratik şəraitdə prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Ölkədə demokratik dəyişikliklər aparıldı, hüquq-mühafizə və məhkəmə sistemi yenidən quruldu.

Prezident İlham Əliyev: "İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir."

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətə, dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli platformada əməkdaşlıq əlaqələrinin qurulmasına nail oldu. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, sürətli tərəqqisi, həyata keçirilən əzəmətli layihələri, modernləşməsi və vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər hər birimizi qürurlandırır. Bu məhz müstəqil bir dövlət olaraq Azərbaycanın müstəqil şəkildə dövlət başçısı tərəfindən həyata keçirdiyi siyasətinin nəticəsidir. "Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir", - deyən Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin qorunmasının, möhkəmlənməsinin ən vacib məsələlərdən biri olduğunu qeyd edib: "1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!"

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbəərliyi ilə 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü Qalib xalq kimi qeyd edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənclər üçün sosial media: Faydalı, yoxsa zərərli?

ARAŞDIRMA

***Sosial media XXI əsrdə ünsiyyət formalarının əsasına çevrilmişdir. Xüsusilə 2020-ci ildə pandemiyanın təsiri ilə bütün dünyada sosial mediadan istifadə tezliyi ciddi dərəcədə artdı. Bu gün istər fərdi, istərsə də təşkilati səviyyədə hər yaşda insanlar sosial mediada hesab yaradır və ondan aktiv şəkildə istifadə edirlər.***



Sosial media istifadəçilərin öz istehsal etdikləri məzmunu paylaşdıqları və yaydıqları onlayn platformadır. Təkcə ünsiyyət vasitəsi deyil, həm də özünüifadə, reklam, inandırma və təsir məqsədilə istifadə olunur. BMTQ-nın (Beynəlxalq Məlumat və Texnologiyalar Qurumu) məlumatına əsasən, ən çox istifadə edilən sosial media şəbəkələri yaş qruplarına görə fərqlənir. Rəsmi yaş həddi 13 olsa da, bir çox valideynlər daha kiçik yaşlı uşaqlar üçün də hesablar yaradırlar.

İnternetə çıxışı və texnoloji cihazı olan hər yerdə sosial mediadan istifadə mümkündür. Buna görə də uşaqların və gənclərin sosial mediaya çıxışına nəzarət edilməli, onları şüurlu istifadə barədə maarifləndirmək vacibdir. Gənclərin nə qədər, necə və hansı məqsədlərlə sosial mediadan istifadə etdiyinə ailələr nəzarət etməlidirlər. Gənclər üçün Sosial Media: Faydalı, yoxsa zərərli?









SİA mövzu ilə bağlı araşdırma aparıb.

Xüsusilə 12–21 yaş aralığındakı yeniyetmələr üçün sosial medianın təsiri müxtəlif aspektlərdən qiymətləndirilməlidir. Bu nəsil texnologiya ilə doğulan və böyüyən bir nəsildir. Onlar üçün internet, sosial media və texnologiya — məlumat əldə etmək, paylaşmaq və əlaqə qurmaq vasitəsidir.

Sosial media həm də sosiallaşma, şəxsiyyətin formalaşması və özünü qiymətləndirmə vasitəsidir. Yeniyetməlik dövründə ailə ilə münasibətlər zəifləyir, həmyaşıdlarla vaxt keçirməyə meyil artır. Bu dövrdə gənclər emosional baxımdan daha həssas olurlar, bu da onların sosial mediada mənfi təsirlərə daha çox məruz qalmasına səbəb ola bilər. Rəqəmsal zorakılıq günümüzün əsas problemlərindən biridir. Bir çox ailə sosial medianın təsirindən qorunmaq üçün məhdudiyyətlər tətbiq edir. Lakin sosial medianı qadağan etmək düzgün yanaşma deyil. Bunun əvəzinə, daha sağlam, səmərəli və ağıllı istifadə yolları öyrədilməlidir.

## Sosial medianın gənclərə faydaları

**1.** Pandemiya dövründə ünsiyyət vasitəsi: Gənclər sosial medianın köməyi ilə təhsillərini davam etdirə, bilik və ideyalarını paylaşa bildilər.

**2.** Qlobal əlaqələr: Sosial media vasitəsilə fərqli ölkələrdən insanlarla ünsiyyət quraraq dil bacarıqlarını və mədəni anlayışlarını inkişaf etdirirlər.

**3.** Utancaqlığın azalması: Sosial mediada daha rahat ünsiyyət quran gənclər özlərini daha sosial hiss edə bilərlər.

**4.** Yaradıcılıq və özünüifadə: Bloglar, "YouTube" və "Instagram" səhifələri vasitəsilə maraqlı və faydalı məzmunlar yaradaraq həm öyrənir, həm də paylaşırlar.

**5.** Əlavə məlumat mənbəyi: Gənclər sosial mediada elmi, texnoloji və siyasi xəbərləri real vaxtda izləyə bilirlər.

## Sosial medianın gənclərə zərərləri

**1.** Saxta hesablar və təhlükələr: Gənclər bəzən saxta profillərlə qarşılaşaraq emosional və maddi risklərlə üzləşə bilərlər.

**2.** Nifrət, təhqir və kiber zorakılıq: Anonimlik insanlarda aqressiv ifadələrin artmasına səbəb ola bilər.

**3.** Özünü başqaları ilə müqayisə: Gənclər sosial mediada gördükləri "ideal" həyat tərzləri ilə özlərini müqayisə edərək narazılıq və depressiya yaşaya bilərlər.

**4.** Lazımsız istehlaka təşviq: Brend və məhsullarla bağlı təbliğatlar gənclərdə istehlak mədəniyyətini formalaşdırır.

**5.** Travmatik məzmuna məruz qalma: Zorakılıq, qəza və ya təbii fəlakətlərlə bağlı görüntülər psixoloji zərər verə bilər.

**6.** Məxfi məlumatların paylaşılması: Həddindən artıq şəxsi məlumat paylaşımı təhlükəli situasiyalara səbəb ola bilər.

**7.** Sosial bacarıq çatışmazlığı və diqqət pozuntusu: Üz-üzə ünsiyyət bacarıqları zəifləyir, ekran qarşısında uzun müddət qalmaq isə diqqəti yayındırır.

**8.** "FOMO" – Qaçırmaq qorxusu: Gənclər sosial medianı buraxmaqdan qorxur, daim yenilikləri izləmək istəyirlər.

## Valideynlərə tövsiyələr

• Qadağalar əvəzinə nəzarət və istiqamətləndirmə: Sosial media tamamilə qadağan edilməməli, əksinə, nəzarətli və məqsədyönlü istifadə təşviq edilməlidir.

• Maarifləndirmə erkən başlamalıdır: Uşaqlar erkən yaşlardan sosial medianın doğru istifadəsi barədə məlumatlandırılmalıdır.

• Uşağın sizə güvənməsi vacibdir: Onlar rastlaşdıqları çətinlikləri valideynlərlə paylaşmaqda tərəddüd etməməlidirlər.

• Kiber zorakılığın nəticələri izah edilməlidir: Gənclər özlərinin və başqalarının hüquqlarına hörmət etməyi öyrənməlidirlər.

• Peşəkar dəstəkdən çəkinməyin: Əgər sosial medianın təsiri artıq zərərlidirsə, mütəxəssislərdən dəstək almaq vacibdir.

Müasir dövrdə sosial media və texnologiya həm gənclər, həm də böyüklər üçün qaçılmaz vasitəyə çevrilmişdir. Əgər düzgün və şüurlu şəkildə istifadə olunarsa, sosial media həm fərdi inkişafı, həm də akademik uğuru dəstəkləyə bilər. Lakin nəzarətdən çıxmış istifadə hallarında bu alətlər zərər verə bilər. Ona görə də balanslı və məlumatlı yanaşma ən doğru yanaşmadır.

***Ayşən Vəli***

# “Yaş senzi”nə qarşı mitinq iştirakçıları olan 8-12 yaşlı uşaqlar kim idi?





***Yaxın keçmişimizin həllolunmaz problemi olan Qarabağ münaqişəsi müasir Azərbaycanın qurucu lideri Azərbaycanın bütövlüyünün təminatçısı ümummilli lider Heydər Əliyev və onun siyasi varisi Müzəffər Ali Baş Komandanın xalqa arxalanan siyasi iradəsi və dühası nəticəsində artıq tarixə çevrilmişdir.***

Münaqişə fonunda Azərbaycanda Milli Azadlıq Hərakatı başladı. Bu vaxtlar SSRİ rəhbərliyi Heydər Əiyevi siyasi fəaliyyətdən təcrid etməyə çalışırdı. Lakin Heydər Əliyevin ürəyi xalqı ilə birgə döyünürdü. Təəssüflə qeyd etməliyik ki, M.Qarbaçovun siyasi təcrid siyasətinə Azərbaycanın o vaxtki rəhbərliyi Ə.Vəzirov və Ayaz Mütəllibov da qoşuldu. Respublika rəhbərliyi onun gəlişində təşvişə düşərək onu siyasi fəaliyyətdən uzaqlaşdırmaq prezident seçkisində iştirakının qarşısını almaq məqsədi ilə Prezident seçkisi haqqında konstitusiya qanununa yuxarı yaş məhdudiyyəti qoyaraq 65 yaşından yuxarı şəxslərin Prezident seçkisində iştirakını qadağan etdilər.

Əlbəttə Azərbaycan xalqının ürəyində Heydər Əliyevə qarşı olan xalq sevgisi onun bu hüquqi buxovlara boyun əyəcəyinə imkan verməzdi. Belə bir məqamda Ulu Öndərə xalq sevgisinin ilk təzahürləri görsənməyə başladı. Fədakar və cəsarətli insanlar artıq öz etirazlarını bildirmək üçün Qanunverici orqanın qarşısına toplaşmağa başladılar. Müasir Azərbaycan siyasi tarixinə ”Yaş Senzi” mitinqləri kimi düşmüşdür. Təsadüfi deyil ki, Prezident cənab İlham Əliyev ”Yaş senzi” mitinqlərinin iştirakçıları barəsində deyir: ”O vaxt ulu öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa heç kimi rəhbər vəzifəsində görmürdü və onun gələcək fəaliyyətini əngəlləmək üçün o vaxt partokrat hakimiyyət ”yaş senzi” kimi çox cəfəng bir qaydanı tətbiq etmişdir. Səhv etmirəmsə, 65 yaşdan yuxarı olan şəxs Prezident ola bilməzdi. Ulu Öndərin də o vaxt 69 yaşı vardı və yadımdadır parlamentin qarşısında kütləvi etiraz aksiyaları təşkil edildi onlar öz sözünü dedi heç kimdən qorxmadılar. Çünki o vaxt repressiya təhlükəsi çox böyük idi”.



Həmin hadislərdən otuz ildən çox vaxt keçir. Həmin hadisələrin tarixini əks etdirən fotolara baxarkən burada iki azyaşlı uşaqlar görürük 8-12 yaşlarında əllərində Heydər Əliyevin portreti və Azərbaycanın üç rəngli bayrağı. Bu azyaşlı uşaqlar Tural və Ramin qardaşları əqidəli insan bütün həyatı boyu Heydər Əliyevin dövlətçilik prinsiplərinə sadiq qalan Arif Rüstəmovun övladlarıdır. Arif Rüstəmov bu mitinqin əsas təşkilatçılarından olub. Bu tarixi anlara azyaşlı vaxtı iştirakçısı, ”bayraqdarı” və şahidi olmuş, hazırda polis əməkdaşı kimi fəaliyyət göstərən Tural Rüstəmovla müsahibəmizdə nəzər salacağıq.

***- Tural müəllim, bu tarixi hadisələrə necə qoşulmuşdunuz. Bu barədə nə deyə bilərsiniz ?***

- Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin məhv olmaq, vətəndaş qarşıdurması yaranmasının qarşısını almaq kimi müqəddəs bir missiyanı daşıyan dahi unudulmaz siyasətçidir. Atam Arif Rüstəmovun bizə aşılaması nəticəsində ailəmizdə bu fenomenal şəxsiyyətə böyük sevgi olub. Bunun nəticəsidir ki, biz ailə üzvülərimizlə birlikdə azyaşlı uşaq olarkən Heydər Əliyevə qarşı süni maneə kimi düşünülmüş ”Yaş senzi” mitinqinin iştirakçısı olmuşuq. Atam bu işlərdə çox fəal idi. O, bütün maddi-mənəvi potensialını Heydər Əliyevin siyasi fəaliyyətinə qarşı yönəlmiş maneələrin aradan qaldırılmasına yönəltmişdi. Cənab Prezidenti dediyi kimi həmin vaxtlar repressiya təhlükəsi çox böyük idi lakin biz bu repressiyaları gözə almışdıq.

***- Həmin mitinqləri necə xatırlayırsınız?***

- Həmin hadisələr vaxtı mənim 8, qardaşım Raminin isə 12 yaşı var idi. Bu mitinqlərin əsas təşkilatçılarından biri atam Arif Rüstəmov idi. O, bizə aşılayırdı ki, Azərbaycanı yalnız Heydər Əliyev xilas edə bilər, o gəlməsə siz uşaqların da gələcəyi yoxdur. Əlbətdə biz azyaşlı uşaqlar hadisələrin siyasi mahiyyətini başa düşməsək də atamızın doğru yolda olduğuna inanırdıq və atamızla bir yerdə olmaqdan qürur duyurduq. O səbəbdən də indi fərəh hissi ilə baxdığımız o günlərdə Ulu Öndərin müdafiəsi ilə bağlı ilk mitinqdə mən əlimdə Azərbaycanın üç rəngli bayrağını tutmuşam. Hansı ki o bayrağı yüz ildən sonra Ümummilli Lider yenidən Naxçıvanda qaldırdı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev isə işğaldan azad olunmuş ərazilərdə qaldıraraq dövlətimizin suverenliyini bərpa etdi.

***- Bildiyimizə görə Siz həmin mitinqlərdə xəsarət almısınız bu barədə nə deyə bilərsiniz?***

- Bəli bu mitinqlərdə biz ailəlikcə davamlı olaraq iştirak edirdik. Bir müddətdən sonra bizə qarşı basqı etmək üçün hakimiyyətdə olan siyasi qüvvələr alternativ mitinqlər təşkil etdilər və hətta avtomat silahlarla oraya gəlmişdilər. Bu mitinqlərin birində mən ayağımdan xəsarət aldım və qarşıdurma burada fiziki zorakılığı çevrildi. Lakin biz mitinqi tərk etmədik. Bu mitinqlər Heydər Əliyevə olan xalq sevgisinin təzahürü idi. Bu şəxslərin fədakarlığı və cəsarəti sayəsində bu hərakat kütləvi xalq hərakatına çevrildi. Bizim davamlı mitinqlərimizdən sonra bu hərakat daha da genişləndi.

***- Mənzilinizin yandırılması ilə bağlı məsələ barəsində də danışmağınızı xahiş edirik.***

- Bəli sözügedən mitinqlərdə plakatların və şəkillərin bir hissəsi məhz bizim mənzildə hazırlanırdı. Həmin vaxtı hakimiyyətdə olan siyasi qüvvələr bizim mənzilimizi nəzarətə götürmüşdülər. Tez-tez atama xəbərdarlıq edirdilər ki mitinqlərə getməsin və azyaşlı uşaqlarını mitinqə aparmasın. Lakin atam bu təhdidlərə məhəl qoymurdu. Həmin dönmələrdə təəssüflə qeyd etməliyəm ki, Suraxanı rayonu Əmircan qəsəbəsində yerləşən mənzilimizə də basqın edilərək evimiz yandırılmışdır. Elə düşünürdülər ki bu cür basqıdan sonra biz artıq ümummilli liderin müdafiəsindən əl çəkəcəyik. Lakin biz həqiqətin harad olduğunu bilirdik heç vaxt yolumuzdan dönmədik. Tarix göstərdiki bizim inandığımız ideallar Azərbaycanı işıqlı gələcəyə apardı.

***- Tural Rüstəmov hazırda nə işlə məşğul olursunuz?***

- Biz ailədə həmişə dövlətçilik prinsiplərinə sadiq olma duyğusu ilə böyümüşük. Heydər Əliyevin Azərbaycan polisi haqqında söylədiyi Azərbaycanın Daxili İşlər Nazirliyində sədaqətlə xidmət edən insanlar öz vətəndaşlıq borcuna sadiq qalmışlar, öz xidməti vəzifələrini layiqincə yerinə yetirmişlər, Azərbaycanın Daxili İşlər Nazirliyi onun orqanları, Azərbaycan polisi yaxşı səviyyədədir və ümidvar olduğumu bildirmək istəyirəm ki, Daxili İşlər Nazirliyinin bütün əməkdaşları qarşısında duran vəzifələrin hamısını şərəflə, layiqincə yerinə yetirəcəkdir.

Mən Heydər Əliyevin dediyi polis əməkdaşı olmaq məqsədi ilə dövlətimizə xidmət etmək üçün polis orqanlarını seçmişəm və bununla fərəh duyuram.



# “Ümumilikdə cəmiyyətdə o fikirlər var”

ŞƏRH

“25 may tarixində II və III ixtisas qrupları üzrə qəbul imtahanları keçirildi. Hər imtahandan sonra sualların çətinliyi ilə bağlı müxtəlif fikirlər səsləndirilir”. Bu sözləri S A-ya açıqlamasında təhsil eksperti İlqar Orucov deyib. Onun sözlərinə görə, bəziləri sualların çətin olduğunu, bəziləri isə orta ağır və ya ümumiyyətlə çətin olmadığını, normal səviyyədə olduğunu bildirir: ”Yəni bu məsələyə münasibət birmənalı deyil. Təbii ki, yaxşı nəticə əldə edə bilməyən bir abituriyent sualların çətin olduğunu deyə bilər. Amma ümumilikdə cəmiyyətdə bu mövzuda müxtəlif fikirlər mövcuddur. Mən bu suallarla tanış deyiləm və ona görə də onların nə dərəcədə çətin və ya asan olduğunu dəqiq deyə bilmərəm. Bu barədə daha dəqiq fikir bildirə biləcək şəxslər həmin suallarla tanış olanlardır. Dediyim kimi, çətin olduğunu deyənlər də var, asan və ya orta səviyyədə olduğunu bildirənlər də.



Qəbul imtahanlarında balların aşağı düşməsi mümkündürmü? Bu, yalnız bir proqnoz ola bilər. Mən düşünmürəm ki, ballarda ciddi eniş olacaq. Amma yenə də qeyd etmək lazımdır ki, bu, sadəcə bir ehtimaldır. İmtahanlar başa çatdıqdan və qəbul prosesi yekunlaşdıqdan sonra bu barədə daha dəqiq fikir bildirmək mümkün olacaq.

Mən düşünürəm ki, bu il sənəd verən abituriyentlərin sayı çox deyil və onların arasında rəqabət də güclü deyil. Rəqabətin səviyyəsi təxminən 2 nəfərin bir yer uğrunda mübarizəsi şəklindədir. Bu da yüksək rəqabət sayılmır. Rəqabət aşağı olduqda isə ballarda ciddi dəyişikliklər müşahidə olunmur. Həmçinin plan yerlərinin artırılması və yeni universitetlərin fəaliyyətə başlaması da nəzərdə tutulur. Bütün bu amillər qəbul ballarına da müəyyən təsir göstərəcək. Hesab edirəm ki, artıq çox az vaxt qalıb və biz daha dəqiq, doğru məlumatları yalnız imtahan prosesi tam başa çatdıqdan və nəticələr açıqlanandan sonra verə bilərik”.

***Ziya Hikmətoğlu***

# Şərqdə və müsəlman dünyasında ilk demokratik dövlət

**1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət, öz müstəqil dövlətinə sahib oldu.**



**Akif RƏFİYEV**
*Qarabağ müharibəsi veteranı, Ədliyyə general-mayoru, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, Binəqədi rayon Ağsaqqallar Şurasının sədri*

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətinin əsas hissəsini ilk növbədə Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq təşkil edirdi.

1918-ci il mayın 27-də Seymin müsəlman fraksiyası çox çətin və mürəkkəb geosiyasi vəziyyətdə fövqəladə iclas çağıraraq geniş müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq barədə qərar qəbul etdi. Bir gün sonra, mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın Dövlət Müstəqilliyi haqqında İstiqlal Bəyannaməsini elan etdi.

28 May 1918-ci ildə xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirən Cümhuriyyət qurucuları müasir tariximizin şanslı səhifəsini yazdılar. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini özündə birləşdirən Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın milli və siyasi şüurunun, yüksək mədəniyyətinin nəticəsi idi. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. AXC-nin qısa dövr ərzindəki fəaliyyəti zamanı Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, cümhuriyyətin beynəlxalq münasibətlər sistemində tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, habelə demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Bununla yanaşı, milli dövlətçilik ənənələri, Azərbaycan vətəndaşlığı institutunun təsis edilməsi, milli ordunun yaradılması kimi faktlar dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis olundu. Milli ordu qurulmuş və Qafqaz İslam Ordusu ilə birlikdə Bakı işğalçılardan azad edilmişdir. Qısa müddət ərzində olduqca mütərəqqi sayılan müddəaları özündə əks etdirən çoxsaylı qanunlar qəbul olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin "Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi" fikirləri tarixin sınağından keçmiş hikmətli sözlərdir. Təəssüf ki, Xalq Cümhuriyyətimiz, yalnız 23 ay yaşadı və 11-ci qırmızı ordu tərəfindən süquta yetirildi. Azərbaycan xalqı hər zaman Xalq Cümhuriyyətinə, milli istiqlaliyyətinə bağlı olduğunu sübut etmişdir. 70 illik sövet dövründə xalqımızın milli azadlıq düşüncələri ədəbiyyatda, incəsənətdə öz əksini taparaq istiqlalçı nəsillərin yetişməsinə səbəb oldu. 1991-ci il oktyabr ayının 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli "İstiqlal Bəyannamə"sinə istinad olunmuş və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Müstəqilliyinə yenidən qovuşan Azərbaycan suverenliyini qoruyub saxlamağı bacardı. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Ümummilli xalqımıza qazandırdığı milli siyasi müstəqilliyin daha da möhkəmləndirilməsi üçün ilk növbədə Azərbaycanın iqtisadi müstəqilliyinin təmin olunmasının zəruriliyini bilirdi. Ulu Öndər Heydər Əliyev neft sektoruna xarici sərmayələrin cəlb edilməsi istiqamətində ciddi addımların atılmasını təmin etmiş, 1994-cü ilin sentyabr ayının 20-də "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur.

Bu gün, Azərbaycan özünün hər bir sahədə dinamik inkişaf dövrünü yaşayır, çünki ölkə Prezidenti, cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi, Azərbaycan Bayrağının bu gün, artıq işğaldan azad olunmuş Şuşada dalğalanması Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir. Hal-hazırda, ölkə Prezidenti, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi, siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün əsaslı tədbirlər görülür. Təbii ki, qazanılmış olan bu nailiyyətlər, öz növbəsində hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur.

# Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur

*Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlıq son illərdə sürətlə artan və inkişaf edən bir sahə olaraq diqqət çəkir. Hər iki ölkə, xüsusilə enerji, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir. Azərbaycan təbii resursları, müasir nəqliyyat infrastrukturu və strateji coğrafi mövqeyi ilə Macarıstanın iqtisadi maraqlarına uyğun olan müxtəlif sahələrdə təkliflər irəli sürür. Ölkəmizin strateji mövqeyi, zəngin enerji ehtiyatları, tarazlı və praqmatik diplomatik fəaliyyəti Azərbaycanı qlobal əməkdaşlıqda mühüm tərəfdaşlardan birinə çevirib.*



*Kəmalə ABBASOVA*
*Tarix müəllimi*

Prezident cənab İlham Əliyevin Macarıstana işgüzar səfəri çərçivəsində Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışı, həmçinin Macarıstanın Baş naziri Viktor Orbanla məhdud və geniş tərkibdə görüşləri, mətbuata birgə bəyanatları iki ölkənin münasibətlərinin dünəni, bu günü və gələcəyi barədə də aydın təsəvvür yaradıb. Azərbaycanın xarici siyasətinin önəmli istiqamətlərindən biri Mərkəzi və Şərqi Avropa ölkələri ilə, xüsusilə Macarıstanla əlaqələrin möhkəmləndirilməsidir. Bu, yalnız siyasi və iqtisadi sahələrdə deyil, həm də enerji, təhlükəsizlik və regional əməkdaşlıq sahələrində strateji tərəfdaşlığın dərinləşməsini nəzərdə tutur. Avropa İttifaqının üzvü olan Macarıstan Azərbaycanın Avropa ilə əlaqələrinin inkişafında mühüm rol oynayır. Azərbaycan Prezidenti iki ölkənin möhkəm təmələ əsaslanan münasibətlərini "Biz dost ölkələrik, strateji tərəfdaşıq" fikirləri ilə ifadə etdi. Qarşılıqlı səfərlərin dinamikliyi, iki ölkənin liderlərinin dostluq münasibətləri diqqətdən kənarda qalmır. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur. Bu, Macarıstana 6-cı səfəridir. Orban isə Azərbaycana 7 dəfə səfər edib. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır. Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır.

"Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə – diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub". Bu sözləri Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatında deyib.

Azərbaycanın xarici siyasətinin önəmli istiqamətlərindən biri kimi Mərkəzi və Şərqi Avropa ölkələri ilə, xüsusilə Macarıstanla əlaqələrin möhkəmləndirilməsi ön sırada gəlir. Avropa İttifaqının üzvü olan Macarıstan Azərbaycanın qitə ilə əlaqələrinin inkişafında strateji körpü rolunu oynayan ən etibarlı tərəfdaşıdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə səmimi dostluq münasibətləri, iki ölkə arasında müntəzəm surətdə həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər əməkdaşlığın yeni üfiqlərini açır. Buna iki dost ölkə liderinin qarşılıqlı səfərlərində intensivləşən şəxsi təmasları da dəlalət edir. Azərbaycan Prezidenti Macarıstanda 2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar.

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Macarıstana işgüzar səfəri iki dost dövlət arasında əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynayacaqdır. Macarıstanın paytaxtı Budapeştdə Prezident İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud və geniş tərkibdə tərkibdə görüşləri keçirilib. Görüşlərdən sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı Macarıstanla Azərbaycan arasında bir çox oxşarlıqların olduğunu, onlardan birinin bizim tarixi köklərimiz olduğunu qeyd edib. Prezident cənab İlham Əliyev mətbuata bəyanatında Ermənistan-Azərbaycan sülh prosesinə toxunub. Dövlətimizin başçısı bununla bağlı bildirib:"İkinci Qarabağ müharibəsindən sonra sülh danışıqlarının da təşəbbüskarı biz olmuşuq, sülh müqaviləsinin mətninin də müəllifi biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib. Təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib".

Nəticə etibarilə, Azərbaycan və Macarıstan arasında əməkdaşlıq yalnız iqtisadi əlaqələrlə məhdudlaşmır. Bu, həm də iki ölkə arasında dostluq əlaqələrinin, qarşılıqlı anlaşma və əməkdaşlıq ruhunun daha da möhkəmlənməsinə səbəb olur. İki ölkə qarşılıqlı faydalı layihələr və investisiyalar əsasında gələcəkdə daha da sıx əməkdaşlıq etməyi hədəfləyir. Bu proses, həmçinin bölgələrarası əlaqələrin güclənməsinə və beynəlxalq iqtisadi sistemdə daha böyük mövqe tutmalarına şərait yaradacaq.

# “28 May xalqımızın azadlıq və müstəqil dövlət qurmaq əzminin simvoludur”

***28 may 1918-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Tiflisdə elan edildi. Bu, yalnız Azərbaycanın deyil, bütün Şərqdə və müsəlman aləmində ilk parlamentli, demokratik respublika idi. AXC-nin yaranması ilə Azərbaycan xalqı əsrlər boyu arzuladığı milli suverenlik və dövlət müstəqilliyinə nail oldu. 28 May – yalnız bir tarix deyil, xalqımızın azadlıq və müstəqil dövlət qurmaq əzminin simvoludur. S A mövzu ilə bağlı QHT sədrləri arasında sorğu edərək onların fikirlərini öyrənib.***






**“Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova:** “Artıq 107 ildir ki, 28 may - Azərbaycan Respublikasının Müstəqillik Günü əlamətdar gün kimi ölkəmizdə iftixar hissi ilə qeyd olunur. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi bu gün biz müstəqil, demokratik Azərbaycan dövlətinin qurulmasına görə Xalq Cumhuriyyətinə borcluyuq. Tarix elə gətirib ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanıb. 1918-ci ildə qurulan, lakin xarici müdaxilə və daxili çəkişmələr səbəbindən Azərbaycan Xalq Cumhuriyyətinin ömrü uzun olmadı. İkinci dəfə isə 70 il sonra yarandı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında ”Azərbaycan Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul olundu. Dövlət müstəqilliyimizin bərpasından təxminən iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bu zaman böyük siyasi təcrübəyə malik ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

Möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan asandır Müstəqilliyi qorumaq, müdafiə etmək, gücləndirmək siyasi biliklər, böyük cəsarət tələb edir. Bu gün biz əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanımızı Cənubi Qafqazda lider dövlətə çevirən, həm müstəqil Azərbaycanın, həm də dünya azərbaycanlılarının lideri olan, bütün dünya tərəfindən qəbul olunan, böyük hörmətə və nüfuza malik Prezidentimiz cənab İlham Əliyevin uzaqgörən və məqsədli siyasəti sayəsində müstəqilliyimiz əbədi olaraq yaşayacaqdır”.

**“Cəmiyyətin İnkişaf Mərkəzi”nin sədri Əhməd N. Abbasbəyli:** “Əlbəttə 28 mayşanlı tariximizə qızıl hərflərlə həkk olunmuş, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi olan bir gündür. Azərbaycan Respubliaksının müstəqillik günü ilə bağlı o qədər deyiləsi fikirlər, sətirlərə köçürələsi cümlələr var ki, bunu qısa beş-on cümlə ifadə etmək daxili narahatçılıq yaradır. Görəsən bu şərəfli günlə bağlı düşüncələri kiçik bir mətnə sığışdırmaqla, bu möhtəşəm günün tarixi, mənəvi əhəmiyyətini kiçiltmirik ki?

Təsəvvür edin, mürəkkəb bir dövrdə XX əsrin əvvəllərində böyük oyunçular, güc mərkəzləri - imperiyalar tərəfindən dünyanın növbəti dəfə bölüşdürülməsi prosesi gedir. Bu prosesdə tarixi, mədəniyyəti, dili, dini sıxışdırılan, əhalisinin böyük əksəriyyəti savadsız olan, hərbi hazırlıq səviyyəsi, döyüş təcrübəsi demək olan ki, sıfıra bərabər olan (əlbəttə ki, bu vəziyyət müstəmləkəçi Çar Rusiyası tərəfindən məqsədli şəkildə həyata keçirilən böyük bir planın nəticəsi idi. Belə ki, işğal etdikləri ərazilərdə, xalqların ziyalılarını, hərbçilərini, ümumiyyətlə savadlı, düşünən təbəqəsini məhv edərək, digər hissəsini maxsimum dərəcədə savadsız, döyüş qabiliyyət olmayan müti bir kütlə kimi əsarətdə saxlamaq asan olar və tədricən isə bütövlükdə xalqı assimiliyasiyaya uğradara, onu öz içində əritmək. Bu gün yüzlərlə itmiş və itməkdə olan kiçik xalqların acı taleyi buna sübutdur) bir ərazidə, dövlətçilik ənənələri demək olar ki, artıq unudulmuş, , uzun müddətdən bəri “azadlığın”, “müstəqliyin” nə demək olduğu yaddan çıxmış, bu barədə düşünməyin belə qadağan edildiyi, buna cəhd edənlərin isə edam edildiyi bir mühitdə, heç bir siyasi, sosial bazası olmayan, maddi, hərbi, iqtisadi resursları, beynəlxalq dəstəyi olmayan bir məkanda yeni müstəqil bir dövlət qurmaq nə dərəcədə böyük qəhərmanlıq, bacarıq, nə qədər böyük səy, zəhmət, nə qədər dərin bilik və bacarıq tələb edirdi?



Bizim də bir vətəndaş, insan olaraq bərcumuz, o çətin dövrdə, o cəsarəti, qabiliyyəti və s. nümayiş etdirməyə bacaran qısa müddət belə olsa, müstəqil dövlət qurmağı bacaran, həm də nəinki yalnız Azərbaycan xalqının özünün, həm də bütün Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasını quran, xalqa “azadlığı” dadızdıran, sayları az olsa da, amma mənən və mahiyyət etibarı ilə böyük “KİŞİLƏRİ” ehtiramla yad etmək, daim saygı göstərməkdir!!!

Əminəm ki, 1918-20 illərdə cəmi 23 ayın xalqımızın, insanlarımızın yaşadığı sevinc, qürur, fəxr və s. hissləri o qədər dərin iz buraxmış, həmin şərəfli tariximizin yaddaşlarda həkk olunmuş təsiri o qədər böyük o qədər güclü olmuşdur ki, məhz 1990-cı illərdə milli -azadlıq hərəkatına, və daha sonra müstəqliyimiz bərpasına zəmin yaratdı, onu şərtləndirdi. Baxmayaraq ki, yeni dizayn olunmuş elə həmin İmperiyanın represiya maşını daim öz işini görürdü, zaman-zaman millətin düşünən beyinlərin, azadlıq fədailərini məhv edirdi”.

**“Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi” İctimai Birliyinin sədri Nadir Azəri:** “Bir neçə gündən sonra Azərbaycan xalqı növbəti dəfə 28 May-Müstəqillik Gününü qeyd edəcək. Əvvəlki illərdən fərqli olaraq 2025-ci ildə qeyd ediləcək Müstəqillik Günü bir başqa məqamla da diqqət mərkəzində olacaq. Çünki bu il biz



bu bayramı “Konstitusiya və Suverenlik İli”ndə qeyd edəcəyik. Hesab edirəm ki, 1918-ci ilin 28 may tarixi ilə 2025-ci ilin Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan edilməsi arasında tarixi və şərəfli bir bağ, bir əlaqə var”.

O, qeyd edib ki, Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublikanın yaranması ilə nəticələndi: “Bu, sıradan bir məsələ deyildi. Bu, təkcə Azərbaycan xalqı üçün deyil, bütün müsəlman Şərqi üçün misilsiz hadisə idi. Təsadüfi deyil ki, 1991- ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndə də məhz 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinə istinad edildi”. Müstəqilliyinin bərpasından ötən dövrdə Azərbaycanın regionda və dünyada öz mövqeyini möhkəmləndirdiyini deyən Nadir Azəri bu müddətdə sabitlik, iqtisadi inkişaf, beynəlxalq əməkdaşlıq və ərazilərin işğaldan azad edilməsi istiqamətində tarixi uğurlar əldə edildiyini bildirib: “Bu uğurların qazanılmasında müasir müstəqil Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin xidmətləri misilsizdir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan dövlətini parçalanmaqdan xilas etdi, sabitlik yaratdı və güclü inkişafın təməlini qoydu. Bunun ardınca isə 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi ki, bu il həmin tarixi hadisənin 30-cu ildönümüdür”.

QHT sədri vurğulayıb ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünya miqyasında öz sözünü deyən, müstəqil siyasət yürüdən güclü bir dövlətə çevrilib: “Bu gün Azərbaycan öz tarixinin ən qüdrətli və şərəfli dövrünü yaşayır. Bu uğurun əsasını isə Prezident və Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli, uzaqgörən və məqsədyönlü siyasəti təşkil edir. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi torpaqlarını işğaldan azad edib, beynəlxalq arenada nüfuzunu daha da artırıb, regionda və dünyada siyasi və iqtisadi güc mərkəzinə çevrilib. 5 il öncə əldə edilən tarixi zəfər sayəsində ölkənin bütün ərazisində suverenliyimiz bərpa edilib. Məhz bu iki tarixi məqam əsas götürülərək 2025-ci il “Konstitusiya və Suverenlik İli” elan edilib. Bu ildə 28 May-Müstəqillik Gününün qeyd edilməsinin isə bir başqa dəyəri var”.

**”Yaşıl Dünya” Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli:** “28 may müsəlman Şərqində ilk müstəqil, demokratik respublikanın -Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu gündür. Cəmi 23 ay yaşasa da xalq cümhuriyyəti Azərbaycan tarixində dərin iz buraxdı. Milli ordu quruldu, Qarabağda erməni separatçılarının mövqeləri darmadağın edildi. Bakı Dövləti Universiteti quruldu, yüzlərlə gənc Avropa ölkələrinə təhsil almağa göndərildi. Azərbaycan parlamenti açıldı. Azərbaycanın müstəqilliyinin tanınması istiqamətində diplomatik qələbə əldə edildi. 1920-ci ilin yanvarın 11-də Paris Sülh konfransında Azərbaycanın müstəqilliyi tanındı. Lakin Azərbaycanın iqtiqlalı şimaldan daim təhdid edilirdi. Rusiyanın bolşevik hökumətinin Azərbaycanın sərvətlərində, xüsusilə Bakı neftində gözü var idi. Moskva hökuməti Azərbaycana təhdid notaları verirdi. Nəhayət 1920-ci ilin aprelin 27-də daxili xadimlərin dəstəyi ilə 11-ci Qızıl Ordu Azərbaycanı işğal etdi. Xalq cümhuriyyətinin qurucu liderlərindən biri Məhəmməd Əmin Rəsulzadəbin təbirincə desək qısa müddətdə xalq cümhuriyyəti xalqa çox şey qazandıra bilmədi. Lakin istiqal dadızdırdı. Ata, babalarımız müstəqillik şüurunu düşüncələrində yaşatdı, nəhayət 70 il sonra-1991-ci ildə üçrəngli bayrağımız parlamentin, hökumət evinin üzərində yenidən dalğalandı. Bu gün Azərbaycan Xalq Cümhuriyyətini quran, istiqal savaşında və ərazi bütövlüyümüz uğrunda şəhid olmuş insanların ruhu şaddır.



Müzəffər ali baş komandan, prezident cənab İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan yeni uğurlara imza atır. Ulu öndər Heydər Əliyevin dediyi kimi Azərbaycanın müstəqilliyi dönməzdir, sarsılmazdır, əbədidir. Azərbaycan müstəqil dövlət kimi daim var olacaq, dünyanın ən inkişaf etmiş ölkələrinfən birinə çevriləcək”.

***Ayşən Vəli***





# Azərbaycanın tarixi şəhəri İrəvana qazı təyin olundu

***Bu günlər nəinki azərbaycanlıların, ümumilikdə dünya müsəlmanlarını sevindirən xəbər yayıldı - Qafqaz Müsəlmanları İdarəsi tərəfindən tarixi Azərbaycan şəhəri olan İrəvanın qazılığının fəaliyyəti bərpa edilib və İdarənin sədr müavini Bəxtiyar Nəcəfov İrəvan qazısı təyin edilib. Eyni zamanda İrəvan qazılığının Əsasnaməsi də qəbul edilib. Sənədi QMİ sədrinin müavini Fuad Nurullayev Şura üzvlərinin diqqətinə çatdırıb: "İrəvan qazısı Ermənistan ərazisində azərbaycanlıların kompakt yaşadığı və dini-tarixi abidələrin yerləşdiyi ərazilərdə nümayəndəliklər yarada biləcək.***

O öz fəaliyyəti barədə QMİ-yə və Qazılar Şurasına vaxtaşırı məlumat verəcək". Qərbi Azərbaycanlılar öz doğma yurd-yuvalarına qayıdıb, normal fəaliyyətlərini bərpa edənə qədər İrəvan qazısı fəaliyyətini QMİ-nin əsas binasında davam etdirəcək. Məsələ ilə bağlı Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə İrəvan qazılığının fəaliyyətini bərpa etməsinin zamanın tələbi olduğunu bildirib: "Biz Qərbi Azərbaycanda öz milli varlığımızın mənəvi sütununu yenidən dirçəltməliyik. Tarixi ədalət bizdən bunu tələb edir. Bölgənin tarixi-dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi əsrlərə söykənən ənənəvi mənəvi irsin varisi olaraq, tarixi köklərinə istinadən dini-mənəvi mərkəz missiyasını həyata keçirir, statusunu qoruyub saxlayır".

Şeyxülislam Allahşükür Paşazadə onu da bildirib ki, dini mərkəz keçmiş ehtiram və gələcəyə inamla, ənənəvi olaraq Tiflisdə, Batumda, Dərbənddə olduğu kimi, İslam sivilizasiyasının tarixi məkanlarından olan Qərbi Azərbaycanda da İrəvan qazılığının yenidən fəaliyyətə başlamalı olduğuna əmindir: "Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq". Bütün bunları nəzərə alaraq, habelə, Qərbi Azərbaycan İcması ilə məsləhətləşərək İrəvan qazılığının bərpası barədə tarixi əhəmiyyətli qərarımızı elan edirik".

Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Fazil Mustafa

## *Qafqaz Müsəlmanları İdarəsi tərəfindən İrəvan qazılığının Əsasnaməsi də qəbul edilib*

QMİ-nin Qazılar Şurasının iclasında bildirib ki, İrəvan qazılığının bərpası ilə bağlı qanunlara müvafiq dəyişikliklər ediləcək: "Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsində bu məsələyə baxılacaq. Bu sənədlər beynəlxalq ictimaiyyətə çıxacaq. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri kimi bir sıra məsələlərin qanunvericiliyə tam uzlaşması üçün tövsiyələrimizi, fikirlərimizi çatdıracağıq. Çünki bu sənədlər beynəlxalq platformaya çıxacaq, bəlli konvensiyalara, qanunvericiliyin normalarına uyğun olmalıdır. Həm də çalışmalıyıq ki, İrəvan qazısı beynəlxalq platformada Azərbaycanın səsini duyuram şəxs olsun. Eyni zamanda bizim Qərbi Azərbaycana qayıdışla bağlı məsələdə elə nüfuzlu qurum yaratmalıyıq ki, elə məqamda olmalıyıq ki, o məqamdan səslənən fikirlər beynəlxalq ictimaiyyətdə eşidilsin. Çalışmalıyıq ki, Qərbi Azərbaycan icmasının təmsilçisi İslam Əməkdaşlıq Təşkilatında hansısa müşahidəçi statusu ilə yer alsın".

### İrəvan şəhəri qurucularını qəbul etməyə hazırlaşır

Tam qətiyyətlə demək olar ki, İrəvan şəhərinə qazının təyin edilməsi və İrəvan qazılığının Əsasnaməsinin qəbul edilməsi Qərbi Azərbaycan qayıdışın çox yaxın zamanlarda reallaşacağına ümidləri artırır. Təbii ki, bundan sonra müsəlman xalqları və dövlətləri mütərəqqi addım ataraq İrəvan qazısı ilə geniş əməkdaşlıq əlaqələri quracaqlar. Ola bilsin ki, Qərbi Azərbaycanlıların öz doğma yurd-yuvalarına dönüşünün ilk əvvəllərində İrəvan qazısl vəzifəsinin icrası üçün şəhərdə yerləşsin.

Mövcud sənədlərə və arxeoloji qazantılar zamanı aşkarlanan qədim əşyalara əsasən bu şəhər azərbaycanlıların qədim şəhəri olub. Bu ərazilərdə Urartu, Sasani, Ərəb xilafəti, Sacilər, Şəddadilər, Səlcuqilər, Eldənizlər, Elxanilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər, Əfşarlar, Qacarlar yaşamış və yaratmışlar. Orta əsrlər tarixi mənbələrində şəhərin adı Rəvan xanının adına uyğunlaşdırılıb. Sonradan İrəvan adı ilə əvəzlənib. Məlum faktdır ki, Azərbaycanın qədim şəhəri olan İrəvan zamanın keşməkeşli dövrlərini yaşamışdır. Elə İrəvan xanlığının yeni dövrün tələbinə uyğun olaraq inkişafının əsasını 1746-cı ildə qoyan Mir Mehdi xanın hakimiyyəti heç də sakit keçməyib. Ağı vadisinin və Göycə gölünün ətrafında qurulan İrəvan xanlığı çox keçmir ki, bölgənin böyük iqtisadi və siyasi qüdrətə malik xanlığına çevrilir. Məhz bu da Gürcüstan, Rusiya və erməni məliklərinin ciddi narahatlığına səbəb olurdu. Narahatlıq keçirən bu qüvvələr İrəvan xanlığını zəiflətmək üçün hər cür təxribatlardan, eləcə də, yeri gələndə, xanlığı işğal etmək arzusu ilə bölgəyə hücumlar etməkdən çəkinmirdilər. Amma bütün hallarda Mir Mehdi xan qətiyyət göstərir və birləşmiş düşmən qüvvələrini yerlərində oturmağa müvəffəq olurdu. Yüksək hərbi, siyasi təcrübəyə malik Mir Mehdi xan İrəvanı möhkəmləndirmək üçün geniş məhəllələr yaratmış, keçilməz qalalar tikdirmişdir.

O dövrün məlumatlarına görə, xan İrəvanda 20-yə yaxın məhəllə yaratmışdır. Bu məhəllələri isə naiblər idarə edirdilər. Onlar məhəllələrin inkişafına, əhalinin yaşayışlarının təminatına xüsusi diqqət yetirirdilər. İrəvan xanlığının mərkəzi hərtərəfli sıldırım qayalarla əhatə olunmasına və bununla paralel olaraq Azərbaycan xanlıqları ilə, xüsusilə də, Şəki, Quba xanlıqları ilə dostluq əlaqələri qurmuş düşmənə qarşı birgə müharibə aparmaq haqqında birgə hərbi razılaşma əldə etmişdir. Sonradan İrəvan xanı olan Hüseynəli xan Osman sultanı ilə əlaqələr quraraq İrəvan xanlığı ilə Osmanlı imperiyasının şəhərləri arasında iqtisadi-ticarət əlaqələrinin qurulmasına nail olmuşdur. Təəssüf ki, xanlıqda baş qaldıran daxili çəkişmələr Hüseynəli Xanın Xanlıqla bağlı geniş planlarının həyata keçirilməsinə problemlər yaratmışdır. Daxili çəkişmələrdən yararlanan erməni məlikləri də xanlıq üçün təhlükə mənbəyi olan hücumlar təşkil etmişlər. Xüsusilə də, ermənilər gürcülərdən İrəvan xanlığına qarşı birgə mübarizədə istifadə etməyə çalışmışlar. İrəvan xanlığının ərazisində ermənilərin əsas dini mərkəzlərindən biri - Eçmiədzin monastırı (Üçkilsə) yerləşmişdir. Eçmiədzin kilsəsi İrəvan xanlığında çox pozucu rol oynamışdır. Regionda bu kilsə azərbaycanlılara qarşı düşmən mövqe tutmuş "beşinci kolonna" rolunu oynamışdır.

### İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi.

XVII əsrin 60-cı illərindən başlayaraq Eçmiədzin kilsəsinin katolikosları daim Rusiya imperiyasına müraciət edərək Azərbaycan torpaqlarında erməni dövlətinin yaranmasına yardım etməyi xahiş edirdilər. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Karte-Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. Məkrli məqsədləri ilə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar. Məhz 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilmişdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır.

O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar,10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə, xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı.

Ardı Səh. 14

# Azərbaycanın tarixi şəhəri İrəvana qazı təyin olundu

**Əvvəli-Səh-13**

1817-ci və 1819-cu 104 Qafqazda imperiyalar və ernmtiforitı Azjrbayean ərazilərinə köçiirdlnm i illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 rnil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 225 ailə (1234 nəfər) erməni idi.

**Tarixi ədalətsizlik bərpa olunur**

XVIII əsrin birinci yarısında İrəvanın 65 yaşayış məntəqəsində müsəlmanlar, 4 məntəqəsində isə ermənilər yaşayırdılar. Məhəmmədzadə Mirzəbala yazır ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud 3 milyon ermənidən 1 milyon 100 min nəfəri Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə sakin idi. 1988-ci ildən erməni silahlı birləşmələrinin Qarabağa soxulması və sonrakı illərdə Azərbaycan torpaqlarının 20 min kvadrat kilometr ərazisini işğal etməsi, 1 milyondan çox azərbaycanlının qaçqın düşməsi, on minlərlə soydaşımızın öldürülməsi, Xocalının yerlə yeksan edilməsi bizdən keçmişə diqqət yetirməyi, səhvləri təkrar etməməyi, unutqanlığı birdəfəlik yaddan çıxarmağı tələb edir. 1988-ci ildə azərbaycanlıları öz doğma torpaqlarından deportasiyasını silah gücünə həyata keçirdilər. Ermənistan Ali Sovetinin 1988-ci il 22 noyabr sessiyasının məxfi tapşırığına əsasən noyabrın 22-dən 28-dək bu ərazinin 22



rayonundakı 170 təmiz və 94 qarışıq yaşayış yerindən 230 mindən artıq azərbaycanlı, 1000 nəfər rusdilli əhali erməni saqqallılarının silahlı dəstələri tərəfindən zorla qovuldular. Qərbi Azərbaycan ərazisindən deportasiyaya məruz qalanlardan 255 nəfər vəhşicəsinə qətlə yetirilmiş, minlərlə uşaq, qadın, qoca yaralanmış, on minlərlə ailənin əmlakı talan etmişdir. Lakin uzun illər hökm sürən ədalətsizlik, erməni vəhşiliyi tədricən aradan qaldırılmaqdadır.

Xüsusilə də 30 illik erməni işğalına son qoyulub, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Qərbi Azərbaycana qayıdış və yenidən o füsunkar əraziləri cənnətə çevirmək ümidləri artıb. Daha doğrusu əminliklə demək olar ki. dünyanın ən güclü və qüdrətli dövlətlərindən biri olan Azərbaycan Zəngəzura sahib olacaq, Qərbi Azərbaycanlıların öz dədə baba yurdlarına qayıdışı təmin olunacaq və İrəvan qazisi normal fəaliyyətini bərpa edəcək. Bu ümidləri doğruldacaq amillərdən bir də, Azərbaycanın azad, demokratik, hüquqi dövlət olmasıdır. Azərbaycan Respublikasının Konstitusiyanın 7-ci maddəsinin I bəndinə görə, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respub-



likadır. Ölkəmizdə əhalinin 90 faizini müsəlmanlar təşkil etsə də digər dinin daşıyıcıları da sərbəst, heç bir ayrı-seçkiliyə yol vermədən, bir ailənin doğma övladları kimi fəaliyyət göstərirlər. Bu baxımdandır ki, Azərbaycan dünyada dini tolerantlığın nümunəvi mərkəzi hesab olunur. Azərbaycan Prezidenti İlham Əliyev Gəncədə "İmamzadə" dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı zamanı çıxışı zamanı demişdir: "Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər Məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır".

Son illər ölkəmizdə 2 minə qədər məscid tikilib və yaxud təmir edilib. Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı şəhərindəki "Cümə" məscidinin, Gəncə şəhərindəki "İmamzadə" dini ibadət mərkəzinin yüksək səviyyədə təmir-bərpa işləri aparıldıqdan sonra inanclı insanların istifadəsinə verilib. İşğaldan azad edilən ərazilərdə ermənilərin 30 il ərzində dağıdıb, viran etdiyi tarixi abidələr, məscidlər , ziyarətgahlar yenidən təmir və bərpa edilir. Şuşada Yuxarı Gövhərağa məcsidi, Aşağı Gövhərağa məscidi, Saatlı məscidi təmir-bərpadan sonra istifadəyə verilib. Fateh Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə hazırda Şuşa şəhərində daha bir böyük məscid tikilir. Eyni zamanda Zəngilanda. Ağdamda, Suqovuşanda, Hadrutda və digər azadlığına qovuşan torpaqlarımızda dağıdılan məscidlərin yenidən təmir tikinti işləri aparılır. Bütün bunlar Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəni irsimizə böyük diqqət və qayğısının təzahürüdür, milli-mənəvi dəyərlərimizin qorunmasına töhfəsidir. Yaxın vaxtlarda Qərbi Azərbaycanda ermənilərin dağıdıb, viran qoyduğu dini mərkəzləri, məscidləri, ibadət ocaqlarını da əsaslı təmir və tikinti işlərindən sonra inanclı insanların ixtiyarına verəcəyik. Bununla bir daha dünyaya Azərbaycan xalqının öz dəyərlərinə, milli irsinə sahib çıxmağı bacaran xalq olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***

# Bakıda taksi duracaqlarının sayı niyə azdır?



*Ekspert mühüm məqamlara aydınlıq gətirdi*

"Müasir dövrdə texnologiyanın sürətli inkişafı nəqliyyat xidmətlərinə də mühüm təsir göstərmişdir. Xüsusilə, taksi xidmətləri rəqəmsal platformalar vasitəsilə istifadəçilərə daha rahat və effektiv şəkildə təqdim olunmağa başlanmışdır. Artıq fərdlər fiziki olaraq müəyyən bir yerə getmədən, istər küçə başında dayandığı yerdə, istərsə də yaşadığı mənzildə əyləşərək mobil tətbiqlər və ya digər elektron vasitələrlə taksi sifariş edə bilirlər. Sifariş edilmiş nəqliyyat vasitəsi birbaşa istifadəçinin müəyyən etdiyi koordinata – yaşayış yerinə və ya istənilən digər lokasiyaya çatdırılır". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti İlqar Hüseynli deyib.

İlqar Hüseynli sözlərinə belə davam edib: "Statistik məlumatlara əsasən, hazırda əhalinin təqribən 90 faizi internet bağlantısına malikdir. Xüsusilə şəhər və yarımşəhər tipli yaşayış məntəqələrində internetə çıxış imkanlarının artması və smart cihazlardan istifadənin geniş vüsət alması bu xidmətlərin əlçatanlığını daha da artırmışdır. Bu amil taksi xidmətlərinin istifadəsində rəqəmsal texnologiyaların rolunun artdığını və bu sahədə ənənəvi üsulların getdikcə aktuallığını itirdiyini göstərir.

Son illərdə mobil texnologiyaların sürətlə inkişafı və internetə çıxış imkanlarının genişlənməsi nəqliyyat sahəsində, xüsusilə də taksi xidmətlərinin təşkili formasında mühüm dəyişikliklərə səbəb olmuşdur. İndi istənilən şəhər və ya yarımşəhər tipli yaşayış məntəqələrində yaşayan və internetə çıxışı olan fərdlər, istədikləri məkanlardan — küçədən, evdən və ya digər istənilən koordinatdan — Uber, Bolt, Yandex Taxi və digər rəqəmsal platformalar vasitəsilə yaxınlıqda yerləşən taksiləri sifariş edə bilirlər.

Bu şəraitdə ənənəvi taksi dayanacaqları (dayaq məntəqələri) sistemi artıq öz funksional aktuallığını tədricən itirməkdədir. Belə ki, bu sistem həm infrastruktur baxımından əlavə yük yaradır, həm də mövcud yol hərəkəti şəraitində səmərəsiz sahə isti-




fadəsinə səbəb olur. Taksi dayanacaqları əsasən magistral yolların sağ və sol hissələrində fiziki sahə tələb edir və bu sahələr yaşıllıq zolaqları, piyadalar üçün ayrılmış zonalar və ya digər ictimai məqsədlər üçün nəzərdə tutulmuş ola bilər. Nəticədə, prospektlərin və yol şəbəkələrinin ötürücülük qabiliyyəti azalır.

Bu baxımdan, taksi dayanacaqlarının sayının tədricən azaldılması və ya müəyyən sahələr istisna olmaqla tamamilə ləğv edilməsi müasir urbanizasiya və ağıllı şəhər konsepsiyasına uyğun bir addım hesab edilə bilər. İstisna hallara nümunə olaraq iri ictimai və mədəniyyət mərkəzlərinin qarşısında yerləşən məhdud sayda taksi dayanacaqları göstərilə bilər. Bu zonalarda daha çox funksionallığa malik — yəni sərnişinlərin düşməsi və minməsi üçün əlverişli şəraitin yaradıldığı müvəqqəti dayanma yerləri kimi düşünülən sahələrə ehtiyac vardır.

Hazırkı mərhələdə məqsəd, daimi stasionar taksi dayanacaqlarından daha çox, taksi vasitələrinin sifariş əsasında müştərini rahat şəkildə götürə və endirə biləcəyi çevik və uyğunlaşdırılmış məkanların yaradılması olmalıdır. Bu isə həm taksi xidmətlərinin optimallaşdırılması, həm də şəhər yol şəbəkələrinin səmərəli istifadəsi baxımından önəmli addımdır".

***Ayşən Vəli***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

***Seriyamızın bundan əvvəlki hissələrində insan orqanizminin öz fəaliyyətini davam etdirməsi və özünü qoruması üçün malik olduğu biotexnoloji sistemlərdən danışmışdıq. Bu yazıda isə insan orqanizmində insanın necə yaranması haqda maraqlı faktları təqdim edəcəyik.***



EMBRYO WITHIN HALVED AMNION, CHORION, AND UTERUS — FORMATION OF UMBILICAL CORD — FETUS WITHIN HALVED AMNION, CHORION, AND UTERUS

©1998 Encyclopaedia Britannica, Inc.

**(XXVI YAZI)**

## İnsan orqanizmindən insan necə yaranır?

Sperma və yumurtanın birləşməsindən əmələ gələn 46 xromosomlu hüceyrə 9 ay 9 gün sonra dünyaya gələcək yeni insanın ilk hüceyrəsidir. Yeni varlığın bütün planını ehtiva edən bu ilk və yeganə hüceyrəyə ”ziqot” deyilir.

İlk hüceyrə bölünməsi sperma və yumurtanın birləşməsindən 24 saat sonra baş verir. Yeni yaranan bu iki hüceyrə bir-biri ilə eynidir. Bu hadisə ilə ana bətnində həyatın 9 aylıq dövrünün ilk günü başlayır. İndi ana bətnində bir deyil, iki hüceyrə var. Sonra bu rəqəm 4-ə çatır və bu bölgü eksponent olaraq davam edir.

Ziqotun yetişmiş forması ”embrion” adlanır. Fallop borusundakı embrion davamlı bölünərək böyüməyə davam edərkən, eyni zamanda növbəti 9 ayı keçirəcəyi yerə doğru hərəkət edir. Bu yer ananın bətnidir.

Bu dövrdə uşaqlıq yolunda lazımi hazırlıqlar aparılır. Qan uterusa axır, onu güclü saxlayır. Yumurtalıqda korpus luteumun ifrazı artır və orqanizmə hamiləliyin başladığı bildirilir. Bu sırada uşaqlıq yoluna doğru üzən hüceyrə yığını olan ziqot “mən buradayam” mesajını ehtiva edən biokimyəvi siqnal göndərməyə başlayır.

Bu mesajlar ananın bədənini döl üçün lazım olan duzları, dəmiri, qanı və vitaminləri təmin etməyə hazırlayır. Eyni zamanda, ziqotun ifraz etdiyi biokimyəvi mesaj (hCG hormonu) ananın yumurtalığına çatır və yeni menstrual dövrün başlamasını əngəlləyən başqa bir hormonun ifrazına başlayır. (Geraldine Lux Flanagan, Beginning Life, A Dorling Kindersley Book, London, 1996, s. 28)

Ziqot özü üçün hazırlanmış bu təhlükəsiz yerə doğru hərəkət edərkən gündən-günə bölünüb çoxalmağa davam edir. Bölünmə hər 30 saatdan bir baş verir. 2, 4, 8, 16 hüceyrəyə bölünən hüceyrələr bir müddət sonra kiçik hüceyrələr toplusu əmələ gətirir və yaxınlıqda üzən uğursuz sperma hüceyrələri ilə birlikdə yavaş-yavaş uşaqlıq borusundan uşaqlığa doğru hərəkət edir.

Fallopiya borusu kanalında baş verənlərə mikroskopka baxılanda okeanın dibinə bənzəyir. Bu hüceyrə çoxluğu (ziqot) uşaqlıq borusunda baş verən dalğalanmalar sayəsində yoluna davam edə bilir. Spermatozoidləri yumurtaya doğru itələyən və mayalanmanın baş verməsini təmin edən dalğavari hərəkət bu dəfə yumurtanı uşaqlığa aparır. Fallop borusundakı hüceyrələr səthlərindəki kirpiklər adlanan kiçik tükləri eyni istiqamətdə hərəkət etdirirlər. Bu şəkildə yumurta hüceyrəsini çox qiymətli bir yük daşıdıqlarını dərk etmiş bir halda lazım olan istiqamətə aparırlar.

Burada bütün funksional hissələr eyni vaxtda eyni məqsədlə işləməyə başlayır, sanki ümumi mənbədən əmr alırlar. Bu, bədənin müxtəlif hissələri tərəfindən dərhal qəbul edilən və həyata keçirilən bir əmrdir.

Fallopiya borusunda olarkən hüceyrə populyasiyası bir neçə bölünmə mərhələsindən keçir. O, uterusa təxminən 100 hüceyrədən ibarət çoxluq şəklində daxil olur. Ancaq bütün bu bölünmə proseslərinin baş verməsi üçün hüceyrələrin qidalanması lazımdır. Bu ehtiyac da insanın yaradılış möcüzəsinin mühüm bir detalı kimi qəbul edilmişdir.

Uşaqlıq borusu ziqotun bu ehtiyaclarını ödəyəcək bir quruluşla yaradılmışdır. Bu gözləmə müddətində uşaqlıq borularının daxili səthini meydana gətirən tük hüceyrələri ”sekretor” adlanan hüceyrələrə çevrilir. Bu hüceyrələrin xarakterik xüsusiyyəti bir stimula cavab olaraq üzvi molekullar, ionlar və su ifraz etmələridir. Bu mayelər fallopiya borularındakı hüceyrə icmasına (ziqota) qida verəcəkdir.



Uterus əzələlərdən ibarət möhkəm divarı olan içi boş bir orqandır və həcmi 50 qramdan çox deyil. Bu hazırlıqlara baxmayaraq, bu ölçü körpənin böyüməsi üçün təbii ki, kifayət deyil. Bunun üçün uşaqlığın strukturunun da dəyişməsi lazımdır. Məhz buna görə də bütün hamiləlik boyu uşaqlığın həcmi tədricən artır və hamiləliyin sonunda onun həcmi 1100 qrama çatır. Bu xüsusiyyət sayəsində uşaqlıq yolu qadının mayalanmış yumurtasının onun içində böyüməsi, inkişafı və tam insan şəklində çıxması üçün ən uyğun yerə çevrilir. Bundan əlavə, qadının çanaq boşluğunun ortasında yerləşməsi döllənmiş yumurta üçün sığınacaq rolunu oynayır və körpəni bütün inkişafı boyunca qoruyur.

“Həqiqətən, Biz insanı xüsusi palçıqdan yaratdıq. Sonra onu bir damla su kimi, yaxşı qorunan bir yerə qoyduq” (Quran, Muminun surəsi, 12-13).

Hamiləliyin sağlam şəkildə davam etməsi üçün hüceyrə topası uyğun bir yerə yerləşməlidir. Həm təhlükəsiz, həm də 9 aydan sonra doğumun baş verə biləcəyi keyfiyyətlərə malik yer seçilməlidir. Bundan əlavə, bu yer körpənin qidalanmasını təmin edəcək ananın qan damarlarına yaxın olmalıdır. Bunun üçün ən uyğun yer, əlbəttə ki, uterus divarıdır.

Fallop borusundan uşaqlığa doğru hərəkət edən ziqot bunu şüurlu şəkildə edir. 3-4 gün içində qaldığı fallopiya borusunun hər hansı bir nöqtəsinə yapışmağa çalışmır. Uşaqlığa çatmadan yapışdığı hər hansı bir nöqtənin varlığını davam etdirməsinə imkan verməyəcəyini bilir. Uterusa qədər irəliləyir; Burada, uşaqlığın divarlarında qan damarlarının sıx olduğu bir sahə tapır və oraya yapışır. Torpağa atılan toxumlar cücərdiyi və kök saldığı kimi, ziqot da böyüməyə davam edir və qida təmin edəcəyi toxumanın dərinliyinə keçərək yeni qida kanalları əmələ gətirir. Burada mühüm bir məqama diqqət çəkmək istəyirik. Ziqotun özünə ən uyğun yeri seçmə qabiliyyəti əməlli başlı bir möcüzədir. ”Həyatın başlanğıcı” kitabının müəllifi Q.Flanaqan bu hadisənin qeyri-adiliyi qarşısında heyrətini belə ifadə edirr:

”Adi hüceyrə yığını necə belə heyrətamiz dərəcədə ”müdrik” seçim edə bilərdi?”(Geraldine Lux Flanagan, Beginning Life, A Dorling Kindersley Book, London, 1996, s. 33)

Unutmayaq ki, ziqot dediyimiz varlıq cəmi bir neçə yüz hüceyrədən ibarət olan və qulaqları, gözləri, beyni, əlləri və qolları olmayan mikroskopik ət parçasıdır. Amma bu rüşeym fövqəladə bir tanıma qabiliyyəti nümayiş etdirir və onun üçün ən uyğun yerə, uterusa gedərək orada yerləşir.

İnsanın yaradılışındakı möcüzəli hadisələr bunlarla bitmir. İnsanın varlığının hər mərhələsi bir-birinə qarışmış möcüzələr zənciridir. Sonrakı mərhələdə başqa bir sual ortaya çıxır: Bənzər hüceyrələrdən ibarət olan və özünü lazım olan yerdə saxlamaq üçün xüsusi qarmaq və ya bu kimi digər vasitəsi olmayan ziqot uşaqlıq yolunun divarına necə yapışır?

Ziqotun uşaqlıq divarına yapışdırmaq üçün istifadə etdiyi üsul son dərəcə diqqətəlayiq və mürəkkəb bir sistemdir. Ziqotun ən xarici təbəqəsindəki hüceyrələr ”hialuronidaza” adlı bir ferment ifraz edir. Bu fermentin xüsusiyyəti - daha əvvəl sperma haqqında qeyd etdiyimiz kimi - uşaqlığın divarının toxumasında olan turşu təbəqəsini (hialuron turşusu) parçalaya bilməsidir. Bu, ziqotu meydana gətirən hüceyrələrin uşaqlıq toxumasını parçalayıb içəri keçməsini asanlaşdırır. Beləliklə, ziqot hüceyrələrinin bir hissəsi uşaqlıq yolunu yeyir və uterus divarının dərinliyinə doğru hərəkət edərək içərisinə möhkəm yerləşir.

Bu mərhələdən sonra embriona çevrilən ziqotun yaşaması və inkişafı üçün daimi oksigen və qida maddələrinə ehtiyacı olur. İnsanın ilk hüceyrələrindən əmələ gələn embrion 9 ay müddətində ehtiyaclarını buradan əldə edəcək. Hər bir insanın formalaşmasının ilk mərhələsi olan ziqot hər dəfə möcüzəvi şəkildə doğru yeri tapır və orada möhkəm yapışır. Bu aydın plan və şüurlu hərəkətlər insan bədənində baş verən bu proseslərin qüdrətli Yaradıcının nəzarəti altında olduğunu göstərir.



“Ana bətnində sizə istədiyi surəti verən Odur. Ondan başqa Tanrı yoxdur. O, qüdrətlidir, hökm və hikmət sahibidir”. (Quran, Ali İmran surəsi, 6)

Embrionun inkişafının 8-ci günündə hüceyrələr fərqlənməyə başlayır, daxili və xarici olmaqla 2 qatlı forma alır. Daxili hüceyrələr (embrioblast) embrionun həyatı boyu malik olacağı hüceyrələri meydana gətirir. Xarici hüceyrələr (trofoblast) insanın doğuşa qədər ana bətnində 9 ay yaşamasına kömək edəcək hüceyrələrdir.

Daxili hüceyrə icması 9 ay ərzində ona xidmət edəcək xarici hissədən özünü ayırır. Yalnız yeni inkişaf edən plasenta ilə embrion arasındakı əlaqəni təmin edəcək göbək kordonuna çevriləcək bölgə qalır və embrioblast hüceyrələri ”embrion diski” adlanan düz bir forma meydana gətirir.

Sonrakı böyümə bu diskin hər iki tərəfində simmetrik olaraq baş verir. Bu proseslər insan orqanizmindəki ilk nizamlanmaların başlanğıcıdır. Bu düz xəttin hər iki tərəfində ektoderma və endoderma adlanan yeni hüceyrələr, onların arasında isə mezoderma adlanan yeni hüceyrələr əmələ gəlməyə başlayır. Bu 3 təbəqənin hər biri sonradan körpənin bədəninin ayrı hissələrini təşkil edəcək.

Ən xarici hüceyrə təbəqəsi olan ektodermadan sinir toxuması, ifrazat vəziləri və epitel toxuması inkişaf edir. Bu toxumalar beyin, onurğa beyni, duyğu orqanları və göz linzalarını meydana gətirəcək. Bundan əlavə, epidermis, tər vəziləri, diş minası, saç və dırnaqlar da bu təbəqəni meydana gətirəcək. Embrionun ən daxili təbəqəsi olan endoderma həzm və tənəffüs sistemini (qaraciyər, ağciyər, mədəaltı vəzi və s.) və əlaqəli vəziləri (tiroid, timus və s.) təşkil edən orqanların inkişafını öz üzərinə götürmüşdür. Bu iki təbəqə arasında mezoderma adlanan üçüncü təbəqə əmələ gəlir. Bu təbəqədən birləşdirici, dayaq, qan və yağ toxuması inkişaf edir. Bu toxumalardan qığırdaqlar, əzələlər, damarlar, skelet və qan dövranı sistemləri, daxili orqanların daxili səthini əhatə edən epitel hüceyrələri əmələ gəlməyə başlayır. Bədəndəki bütün toxumaların hüceyrələri bu kök hüceyrələrdən əmələ gələcək.

Bütün hüceyrələr qruplar halında hərəkət edirlər, məsələn, işçilər öz vəzifə yerlərinə dağılırlar. Daha sonra eyni orqanı meydana gətirəcək hüceyrə qrupları bir-birinə yapışır, yığılır, bükülür və orqanlar meydana gətirməyə hazırlanır. Bu fəaliyyətlər nəticəsində bəzi hüceyrələr sümük hüceyrələrinə, bəziləri dəri hüceyrələrinə və bəziləri əzələ hüceyrələrinə çevriləcək. Bir sözlə, bu metamorfoz prosesində mükəmməl bir strategiya həyata keçirilir və hüceyrələr müəyyən bir plana uyğun hərəkət edir.

Hər hüceyrənin DNT-sində yazılan məlumatlar eynidir. Ancaq hər bir hüceyrə qrupu yalnız özlərinə aid edilən proqramda bu məlumatdan istifadə etdikdə, hər bir orqanın öz funksiyasını yerinə yetirməsi üçün lazım olan xüsusi strukturlara sahib olurlar. Bu möhtəşəm təşkilatda heç vaxt anarxiya baş vermir. Ürək, göz, beyin, qol, ayaq və digər orqanların formalaşdırılması üçün edilən bu hazırlıqlar sayəsində bədən tədricən formalaşmağa başlayır.

Aydındır ki, hüceyrələr çox yaxşı işləyirlər, çünki aralarında davamlı molekulyar dialoq var və onlar dərhal maraqlı genetik göstərişlərə uyğunlaşırlar. Bu təlimatlar genetik kod adlanan genlərdə saxlanılır. Bu genetik proqram ana və ata hüceyrələrinin birləşməsinin ilk günündə əldə edilir. Və bundan sonra hər yeni hüceyrə çoxalması ilə bu genlər kopyalanır və bu yeni hüceyrələrə köçürülür. Buna görə bədəndəki hər hüceyrə eyni genləri daşıyır və bütün genetik proqramı ehtiva edir.

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması” istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
27 may
2025-ci il


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Səhər yeməyi bədənin enerji balansını bərpa edir"



***"Səhər yeməyi – sağlam və balanslı həyat tərzinin təməl sütunlarından biridir". Bu sözləri SİA-ya açıqlamasında dietoloq və sağlam qidalanma mütəxəssisi Ceyhunə Yusifova deyib. O bildirib ki, gecə boyunca bədənimiz uzun müddət ac qaldığı üçün səhər oyananda enerji ehtiyatları azalmış olur: "Məhz buna görə, səhər yeməyi bədənin enerji balansını bərpa edir və günə aktiv başlamağa imkan verir. Səhər yeməyinin vacibliyi nədən irəli gəlir?***

ŞƏRH

**1** Metabolizmanı aktivləşdirir – Ac qarnına səhər yeməyi qəbul etdikdə maddələr mübadiləsi sürətlənir və orqanizm daha çox kalori yandırmağa başlayır.

**2** Qan şəkərini balanslaşdırır – Səhər yeməyi qanda qlükozanın sabit qalmasına kömək edir, bu da gün ərzində enerjinin stabil olmasına səbəb olur.

**3** Zehni fəaliyyətə dəstək olur – Yaxşı səhər yeməyi beyinə oksigen və qida maddələrinin çatmasını təmin edərək diqqət, yaddaş və konsentrasiyanı artırır.

**4** Aclıq hissini azaldır – Səhər yeməyini ötürmək günorta və axşam saatlarında həddindən artıq yeməyə səbəb ola bilər. Bu isə çəki artımı və həzmsizlik riskini yüksəldir.

Bəs səhər yeməyində hansı qidalar vacibdir və imtina edilməməlidir?

**1.** Zülal mənbələri: Yumurtalar, kəsmik, lor pendiri, təbii qatıq, badam və fındıq kimi zülallı qidalar uzun müddət toxluq hissi yaradır və əzələlərin qorunmasına kömək edir.

**2.** Kompleks karbohidratlar: Tam buğda çörəyi, yulaf, qarabaşaq (qreçka) kimi yavaş sorulan karbohidratlar qan şəkərini sabit saxlayır və gün ərzində davamlı enerji verir.

**3.** Sağlam yağlar: Zeytun, avokado, çərəzlər – bu yağlar hüceyrə membranlarını qoruyur, beyinin funksiyalarını və hormonal tarazlığı dəstəkləyir.

**4.** Təzə meyvə və tərəvəzlər: C vitamini, lif və antioksidantlarla zəngindir. İmmunitet sistemini gücləndirir və həzmi yaxşılaşdırır.

**5.** Bitki çayları və ya ilıq limonlu su: Orqanizmi oyandırır, toksinlərin atılmasına kömək edir, həzmi dəstəkləyir.

Nəticə olaraq:

Səhər yeməyi nə qədər balanslı və düzgün olsa, gün ərzində enerji səviyyəsi, əhval-ruhiyyə və iş qabiliyyəti bir o qədər yüksək olur. Bu öyünü ötürmək maddələr mübadiləsinin zəifləməsinə, yorğunluğa, baş ağrılarına və artıq çəki riskinə səbəb ola bilər".

***Söylü Ağazadə***

# 17 yaşı var, La Liqada tarix yazır...

***"Barselona" klubunun vingeri Lamin Yamal La Liqanın 2024/2025 mövsümündə ən çox məhsuldar ötürmə verən oyunçu olub. İspaniya idman nəşrlərinin yazdığına görə, son İspaniya çempionunun heyətində çıxış edən 17 yaşlı futbolçu ölkə çempionatında meydana çıxdığı 35 oyunda 13 məhsuldar ötürməyə imza atıb.***



İkinci yerdə 10 assistlə Rafinya ("Barselona") və Aleks Baena ("Vilyarreal") qərarlaşıb. Vinisius Junior, Cud Bellinqem (hər ikisi "Real"), İsko ("Betis") və İnyaki Uilyams ("Atletik") hərəyə 8 məhsuldar ötürmə ilə üçüncü yeri bölüşüblər.

# İki gündə bank kartlarından 12 minə yaxın pul oğurlanıb

***Mayın 24-də və 25-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 4 min 500, 2 min 576, 1413, 698, 606, 574, 240, 239, 202, 150, 122, 100, 95, 90, 66, 57 manat pul vəsaitləri bank kartlarından oğurlanıb. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.***



"Bank kartının üzərindəki CVV/CVC, SMS vasitəsilə göndərilən OTP kodları məxfi məlumatlardır. Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Naməlum zənglərlə, mesajlarla danışıq, yazışma aparılmamalıdır, dərhal bloklanmalıdır", - deyə məlumatda qeyd olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**